Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

25-27 APREL 2020-ci il

№ 65 (4196)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# MNATSAKANYANIN «ƏRAZİ GÜZƏŞTİ OLMAYACAQ» BƏYANATINA RUSİYA XİN-dən CAVAB - ƏTRAF RAYONLAR QAYTARILMALIDIR...

səh. 8

Operativ Qərargah aprelin 27-dən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verdi
səh. 4

Xəzər Rayon Ziyalılar Cəmiyyəti sədrinin Prezidentə yazdıqlarından - həmrəyliyin Azərbaycan üçün əhəmiyyətini...
səh. 3

Ermənistanın Qarabağ məsələsində böyük yalanı üzə çıxdı - İrəvan qaçılmaz sonluğun dərkindən isterika həddində...
səh. 9

Ermənilər işğal etdikləri ərazilərimizdə azərbaycanlılara məxsus yaşayış məskənlərinin adlarını kütləvi şəkildə saxtalaşdırır
səh. 7

Dövlətdən özəl sektora mühüm dəstək - İqtisadiyyat Nazirliyinin təkliflər paketində nələr var...
səh. 12

ABŞ və İran neft qiyməti ətrafında yeni müharibə oyunu qurur - Tramp İran hərbi gəmilərinə atəş açmaq əmri verdi, SEPAH komandiri "cavabı veriləcək" dedi...
səh. 11

Karantin bitən kimi şəhid ailələri və müharibə əlillərinin üzü ikiqat güləcək...
səh. 13

Sahibkarlara dəstək layihələri bitmir - sadələşdirilmiş vergilər 50 faiz azaldılır
səh. 13



## Dünyanın «bərkgedən» neft ölkələri pul dilənməyə başladı - Nigeriya , Qabon qapılardadır, Azərbaycanın böyük üstünlüyü və fərqləri...

səh. 6





Azərbaycan hakimiyyətinin «yeni siyasi konfiqurasiya» kursunda növbəti element - qatı müxalifətçilər bəraət və külli miqdarda pul alır...
səh. 5

Latviyanın birinci prezidentinin böyük qəbahəti - latışların faciəsinin qondarma «erməni genosidi» ilə müqayisəsi nə deməkdir...
səh. 10

Qarabağ danışıqları mərhələli həll planı üstündə gedir - ermənilərin bunu danmasının arxasındakı mahiyyətlər...
səh. 8

DİN-dən koronavirus günlərində KİV işçilərinə daha bir həssaslıq - şənbə-bazar məhdudiyyətləri də işləyən jurnalistlərə aid edilmədi...
səh. 5



İlqar Məmmədovun "XİN" naziri təyinatı mümkünsüzdür - erməni variantının məqsədləri nədir...
səh. 6



Azərbaycanda sosial dəstək layihələri dalbadal gəlir - aqrar işçilərin sosial sığorta yükü kəskin azaldılır...
səh. 2



190 manat sosial yardımı alanlar Zabrat, Maştağa və başqa yerlərdə kütləvi karantin pozuntusuna gedir...
səh. 14



Daşınmaz əmlaka vergi güzəşti - qiymətlər enəcəkmi...
səh. 15



## Prezident İlham Əliyev Sumqayıtda magistral qaz kəmərinin açılışında iştirak etdi, məcburi köçkünlər üçün yaşayış binalarının tikintisi ilə tanış oldu

**Prezident İlham Əliyev aprelin 24-də Abşeron rayonunun ərazisində Xızı rayonunun Ağdərə kəndindən Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışında iştirak edib.**

Prezident həmin gün Sumqayıt şəhərindəki yataqxanalarda müvəqqəti məskunlaşan 3042 məcburi köçkün ailəsi üçün Abşeron rayonu ərazisində yaşayış binalarından ibarət məhəllələrdə tikinti işlərinin gedişi ilə də tanış olub.

## Azərbaycanda daha 44 nəfər koronavirusa yoluxub, 65 nəfər sağalıb, 1 nəfər vəfat edib




**Azərbaycanda 44 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 65 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan bakixeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, arterial hipertenziya, aterosklerotik kardio skleroz, ürəyin işemik xəstəliyi olan 1935-ci il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1592 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1013 nəfər müalicə olunaraq sağalıb, 21 nəfər vəfat edib, 558 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 16 nəfərin vəziyyəti ağır, 23 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 114 410 test aparılıb.

# Azərbaycanda II Dünya müharibəsi veteranlarına birdəfəlik maddi yardım veriləcək

**Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.**



Sərəncama əsasən, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500 (min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Sərəncamın icrası məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 5,9 milyon (beş milyon doqquz yüz min) manat ayrılıb.

Maliyyə Nazirliyinə həmin vəsaitin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etmək, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə isə birdəfəlik maddi yardımın bu Sərəncamda nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etmək tapşırılır.

# Azərbaycanda sosial dəstək layihələri dalbadal gəlir - aqrar işçilərin sosial sığorta yükü kəskin azaldılır...

**Dövlətdən daha bir dəstək. Koronavirus pandemiyası ilə əlaqədar olaraq kənd təsərrüfatında çalışanların sosial sığorta yükü kəskin azaldılır. Məsələ ondadır ki, mövcud qanunvericilikdə mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin torpaq sahəsinin az və ya çox olmasından asılı olmayaraq, sabit olaraq hər bir əmək qabiliyyətli ailə üzvünə görə minimum əməkhaqqının 6 faizi miqdarında baza sosial sığorta haqqı nəzərdə tutulur.**




Minimum aylıq əməkhaqqı məbləğinin 250 manat məbləğinədək artırıldığını nəzərə alsaq, 5 hektaradək torpaq sahəsi və 4 nəfər ailə üzvü olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər aylıq 60 manat məbləğində məcburi dövlət sosial sığorta haqqı ödəməlidirlər.

Sosial sığorta qanunvericiliyinə təklif edilən dəyişikliklərdə mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin ailə üzvlərinin hər biri üçün məcburi dövlət sosial sığorta haqqı, torpağın sahəsindən asılı olaraq, minimum aylıq əməkhaqqının aşağıdakı dərəcələrdə hesablanması nəzərdə tutulur: 5 hektaradək olduqda - 2 faiz miqdarında, 5 hektardan 10 hektaradək - 6 faiz miqdarında, 10 hektardan yuxarı - 10 faiz miqdarında. Məsələn, 5 hektaradək torpaq sahəsi və 4 nəfər ailə üzvü olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər adambaşına aylıq 5 manat məbləğində, cəmi ailə üzvləri isə 20 manat məbləğində məcburi dövlət sosial sığorta haqqı ödəyəcək. Bu isə sözügedən sahədə sosial sığorta haqqının 3 dəfə azaldılması deməkdir. Habelə, torpaq mülkiyyətçiləri tərəfindən sosial sığorta hesabatının verilməsinin sabit qəbzlə əvəzlənməsi də nəzərdə tutulur.

O baxımdan sözügedən güzəştin aqrar sektor üçün əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən aqrar sahə üzrə ekspert Nicat Nəsirli hesab edir ki, kənd təsərrüfatı sahəsində çalışanların sığorta yükünün azaldılması müsbət addımdır: "Bütövlükdə, 2007-ci ildən aqrar sektorda bir sıra güzəştlər tətbiq olunur. Ən böyük güzəşt xidmətlər bazarındakı güzəştlərdir. Yeni gübrə, toxum, texnika güzəştli şərtlərlə məhsul istehsalçılarına satılır. Məsələn, gübrə 70 faiz güzəştlə satılır. Bazarda gübrənin bir kisəsi 26 manatdırsa, bu, fermerə 8 manata satılır. Eyni güzəştlər yanacaq və texnika satışında da tətbiq olunur. Bu güzəştlərin fonunda, bu ildən elektron kənd təsərrüfatı sistemi fəaliyyətə başlayıb. Kəndçiyə həm əkin sahəsinə, həm də əldə etdiyi məhsulun həcminə görə maliyyə yardımı edilir. Ümumilikdə, güzəştlər kənd təsərrüfatının bütün sferalarını əhatə edir. Bu da aqrar sektorun çox əlverişli biznes sahəsinə çevrilməsinə müsbət zəmin yaradır. Koronavirus pandemiyasından sonra məlum olur ki, iqtisadiyyatda rəqabət gücünə, tələbata görə aqrar sektor özünü doğruldan biznes sahəsinə çevrilir.

### *Nicat Nəsirli: "Kənd təsərrüfatı sahəsində çalışanların sığorta yükünün azaldılması müsbət addımdır"*

*"Həmin vəsait fermerə qalacaq və onu məhsul istehsalının artırılmasına yönəldəcək"*

Çünki insanlar yeri gələndə belə çətin situasiyalarda maşın sürməkdən, geyimdən və s. xidmətlərdən imtina edirlər, amma qidalanmaqdan imtina edə bilmirlər. Müşahidələr göstərir ki, bir sıra ciddi kapitalı olan iş adamları aqrar sektora sərmayə qoymaq istəyirlər. Bu, iki faktorla bağlıdır. Birincisi, bu sahənin cəlbediciliyi artır. İkincisi, dövlət bu sahəyə bir sıra güzəştlər edir. Kənd təsərrüfatında çalışanların dövlət sosial sığorta haqqının 60 manatdan 20 manata endirilməsi mühüm güzəştdir. Aprel və may ayının kənd təsərrüfatı sahəsində çalışanlar üçün vacib ay olduğunu nəzərə alsaq, bu qərar fermerlərin xeyrinə olacaq. Həmin vəsait fermerə qalacaq və onu məhsul istehsalının artırılmasına yönəldəcək".

***Vidadi ORDAHALLI***

# Xəzər Rayon Ziyalılar Cəmiyyəti sədrinin Prezidentə yazdıqlarından - həmrəyliyin Azərbaycan üçün əhəmiyyətini...

**Məlum olduğu kimi, Azərbaycan dövləti bütün resurslarını, gücünü koronavirus kimi gözəgörünməz, lakin çox amansız olan, canlar alan, ocaqlar söndürən bir "düşmən"lə mübarizə istiqamətində səfərbər edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə başlanan və hazırda davam etdirilən pandemiya ilə mübarizə hərəkatı ölkənin tanınmış ziyalıları, mədəniyyət və elm xadimləri tərəfindən də ciddi şəkildə dəstəklənir.**



Bakı şəhəri, Xəzər rayonundan Xəzər Rayon Ziyalılar Cəmiyyətinin sədri, Xəzər Rayon Ağsaqqallar Şurasının üzvü, tarix elmləri doktoru, görkəmli etnoqraf alim, professor Təvəkkül Səlimov Prezidentə ünvanladığı müraciətdə ölkə başçısının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən antivirus tədbirlərinin və əhalinin həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı gerçəkləşdirilən proqramların ölkə ziyalıları, elm xadimləri tərəfindən dəstəkləndiyini qeyd edir:

"Dünyada tüğyan edən koronavirus xəstəliyi ilə əlaqədar atdığınız addımlar, o cümlədən xəstəliyə qarşı mübarizə tədbirləri ilə bağlı dəstək fondunun yaradılması, mövcud tibb müəssisələrinin qısa müddətdə beynəlxalq standartlara uyğunlaşdırılması, tezliklə modul tipli müasir xəstəxanaların istifadəyə veriləcəyi, müasir tibbi avadanlıq və ləvazimatların alınması, fədakar və qəhrəman səhiyyə işçilərinin əməkhaqlarının artırılması, pandemiya ilə əlaqədar işə gedə bilməyən əməkdaşların əməkhaqlarının saxlanılması, ölkə üzrə imkansız ailə və şəxslərə yardımların göstərilməsi, sahibkarlara dövlət dəstəyinin verilməsi, əhalinin sağlamlığının qorunması üçün karantin rejiminin tətbiqi, xüsusən də Sizin müntəzəm olaraq xalqa müraciət və çağırışlarınız insanlar tərəfindən çox böyük rəğbət, əsl humanizm nümunəsi kimi qarşılanır. Bütün bunlar çətin zamanlarda sosial həmrəyliyin cəmiyyət üçün nə qədər böyük əhəmiyyət daşıdığını bir daha təsdiq edir. Bütün bunlar Sizin 2003-cü ildə prezident seçkiləri ərəfəsində söylədiyiniz "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" sözlərinizin tam mənası ilə sübutudur"-deyə bildirən görkəmli alim həmçinin məktubunda qeyd edir ki, Xəzər rayonunun ziyalıları, habelə rayonunun qədirbilən sakinləri bu çətin günlərdə də Prezidentin Azərbaycan yolunda atdığı bütün addımları rəğbətlə qarşılayır, xəlqi mahiyyət daşıyan bu işlərdə ölkə başçısını dəstəkləyirlər.

***İradə SARIYEVA***

# Şirvanlı sahibkarın Prezidentə məktubu məzmunca fərqli oldu - həkimlər və polislər Sizin rəhbərliyiniz altında fədakarlıq edir...

**Dövlətin koronavirus infeksiyasının daha geniş yayılmasının qarşısının alınması istiqamətində həyata keçirdiyi bütün tədbirlər, o cümlədən də respublikamızda karantin rejiminin tətbiq edilməsi vətəndaşların dəstəyini qazanıb.**

Bu ağır günlərdə Azərbaycan polisinin və Azərbaycan həkiminin oynadığı rol, gördüyü işlər vətəndaşlar tərəfindən yüksək dəyərləndirilir.

Şirvan şəhərindən sahibkar Qurbanxan Dəmirov Prezidentə yazdığı məktubda həm ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən mübarizə tədbirlərini, həm də bir həkimlərin, polislərin fədakar əməyini təqdir etdiyini yazır:"Sizin misilsiz idarəçiliyiniz altında ölümcül virusa qarşı mübarizə tədbirləri aparılır. Bu bəlaya qarşı tək dövlət strukturları deyil, cəmiyyətin bütün üzvləri fəal mübarizlik göstərməlidirlər. Təbii ki, bu işdə ağ xalatlı mübariz həkimlərin və polis orqanlarının xidməti təqdirəlayiqdir. Mən bu gün həkimlərin fəaliyyətini Böyük Vətən Müharibəsi illərinə bənzətmək istərdim. Çünki ən çox risq altında olan həkimlərdir".

Q.Dəmirov həmçinin koronavirusa qarşı görülən qabaqlayıcı tədbirlər nəticəsində ölüm və yoluxma səviyyəsi aşağı olduğunu və sağalanların sayının yoluxanların sayını gündən-günə üstələdiyini də qeyd edir. "Məhz Sizin sayənizdə bu gün ölkəmizdə tam ictimai sabitlik hökm sürür, insanların sağlamlığı qorunur"-deyə sahibkar bildirir.

***İradə SARIYEVA***

# Cocuq Mərcanlıdan Prezidentə göndərilən məktubun gücü - səmimiyyət...

**Azərbaycan dövləti tərəfindən virusa yoluxma hallarının qarşısının alınması sahəsində bütün mümkün addımlar atılır, qabaqlayıcı tədbirlər görülür.**

Həyata keçirilən bütün tədbirlər cəmiyyətimizin ayrı-ayrı təbəqələri, bütövlükdə isə vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılanır. Bildiyimiz kimi, Prezidentə Azərbaycanın hər yerindən məktublar yazırlar, vətəndaşlar bu istiqamətdə görülən işlərin uğurlu nəticələrindən məmnunluq duyduqlarını qeyd edirlər.

Cəbrayıl rayonun Cocuq Mərcanlı kəndindən kənd sakinləri adından 1-ci dərəcəli "Əmək" ordenli Həziyev Oqtay Prezidentə yazdığı məktubda cocuqmərcanlılıların Prezidentin həyata keçirdiyi bütün tədbirləri dəstəklədiklərini bildirir:"Bəşəriyyətin üzləşdiyi ağır günlərdə xalqımızın sağlamlığını hər şeydən üstün tutaraq qəbul etdiyiniz yüksək səviyyəli qərarları bəyənirik və Sizinləyik. Sizə bu yolda uğurlar, xalqımıza xoş günlər arzu edirik.

**Siz vətənsevər, zəhmətkeş insanların əməyini, xidmətlərini hər zaman yüksək qiymətləndirdiyiniz kimi, biz də Sizin Vətənimiz, xalqımız üçün gördüyünüz işləri daim təqdir edir, uca tuturuq".**

# Biləsuvarlı Əməkdar həkim Prezidentə məktub yazdı... və sübut etdi ki...



**"Sizin tərəfinizdən biz həkimlərin fədakar əməyinə verdiyiniz yüksək qiymət, atdığınız sosialyönümlü addımlar ziyalılar, tibb işçiləri və bütün əhali tərəfindən hədsiz razılıq hissi ilə qarşılanır.**

Sizin bu qətiyyətli addımlarınız xalqımızın ağır fəsadlar törədə biləcək pandemiyadan tezliklə və az itkilərlə çıxacağına böyük əminlik yaradır".

Bu fikirləri Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən koronavirusla mübarizə tədbirləri ilə bağlı Prezidentə yazdığı dəstək məktubunda Biləsuvar rayonundan Respublikanın Əməkdar həkimi Məmmədov Fail Zöhrab oğlu bildirib.

F. Məmmədov dünyanı bürümüş koronavirus pandemiyasına qarşı respublikamızda Prezident tərəfindən həyata keçirilən qabaqlayıcı tədbirlərin ölkə əhalisi tərəfindən çox böyük razılıqla qarşılandığını da qeyd edir. "Məhz Sizin məqsədyönlü tədbirləriniz nəticəsində xalqımız bu bəladan uğurla qorunur. Sevinirik ki, vətənimiz Azərbaycan hazırda bu pandemiyadan ən az zərər çəkən ölkələr sırasındadır. Bu bir daha göstərir ki, Azərbaycan Prezidenti həmişə öz xalqının yanındadır, onun sağlamlığı dövlət başçısı üçün ən prioritet məsələdir"- deyə səhiyyə xadimi Prezidentə dəstək məktubunda qeyd edib.

# Operativ Qərargah aprelin 27-dən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verdi

**2019-cu ilin dekabr ayından yayılan yeni növ koronavirus (COVID-19) xəstəliyi 2020-ci ilin mart ayından Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən dünyada pandemiya elan olunub. COVID-19 ilə mübarizə sahəsində hazırda əksər dövlətlərdə karantin rejimi tətbiq olunsa da, mövcud məhdudiyyətlər sanitar-epidemioloji vəziyyətə uyğun olaraq yumşaldılır, karantin rejimindən mərhələli çıxış mexanizmləri tətbiq edilir.**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 aprel tarixli, 144 saylı qərarı ilə ölkə ərazisində tətbiq olunan xüsusi karantin rejiminin müddəti uzadılıb. COVID-19 virusu ilə bağlı hazırkı sanitar-epidemioloji vəziyyət, xüsusilə də xəstəliyin yayılma dinamikası və coğrafiyası, karantin zonalarındakı şəxslərin sıxlığı, onlar arasında virusa yoluxma halları təhlil edilib və 2020-ci il 27 aprel tarixindən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verilib.

Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a daxil olan məlumatda bildirilir.

Beləliklə, ölkə üzrə 2020-ci il 27 aprel saat 00:00-dan etibarən:

1) "ASAN Xidmət" mərkəzlərində vətəndaşların qəbulu ASAN mobil tətbiqi, internet saytı və çağrı mərkəzləri vasitəsilə əvvəlcədən onlayn növbə tutmaqla həyata keçirilməyə başlayır.

2) Aşağıda qeyd edilən iş və xidmət sahələrində fəaliyyət bərpa olunur:

- fərdi tədris və repetitor xidmətləri (qrup halında məşğələlər istisna olmaqla)
- kitab satışı
- qəzet satışı
- dəftərxana mallarının satışı
- çap və surətçıxarma fəaliyyəti
- fotoatelye/fotostudiyalar
- fərdi mənzillərdə təmizlik xidmətləri
- dərzi xidmətləri
- kosmetika və ətriyyat satışı
- geyim satışı
- ayaqqabı və dəri məmulatlarının satışı
- qızıl, digər bəzək əşyalarının satışı və lombard fəaliyyəti
- mobil cihazların, ehtiyat hissələrinin və aksessuarlarının satışı və təmiri
- kompüter avadanlıqlarının satışı və təmiri
- elektronika və məişət texnikasının satışı
- mebel satışı
- avtomobil satışı
- kimyəvi məhsulların satışı
- gül və bitki məhsullarının satışı
- kənd təsərrüfatı texnikasının, ehtiyat hissələrinin və avadanlıqlarının satışı
- gübrə və aqrokimyəvi məhsulların satışı

Ticarət Mərkəzləri və "Mall"ların nəzdində qeyd olunan sahələrin fəaliyyətinə məhdudiyyət qüvvədə qalır.

Məhdudiyyətlər aradan qaldırılan sahələrdə işləyən şəxslər barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilir.

Pandemiya dövründə ölkə ərazisində müvafiq strukturların və xidmət sahələrinin fəaliyyəti zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara uyğun həyata keçirilməlidir. Qeyd olunan qaydalar Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən hazırlanaraq ictimaiyyətə təqdim ediləcək.

Bununla yanaşı, 27 aprel 2020-ci il saat 00:00-dan etibarən yaşayış yerini tərk etmək üçün 8103 nömrəsinə SMS məlumat göndərilərkən gələn icazələrin müddəti 2 saatdan 3 saatadək artırılır. Qeyd edilən tarixdən etibarən bəzi fəaliyyət sahələrinə dair məhdudiyyətlər aradan qaldırıldığından 8103 nömrəsinə icazə almaq üçün aşağıdakı hallarda müraciət olunacaqdır:

- 1 rəqəmi - təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini tərk etmək üçün (icazə rayon və şəhər daxilində 3 saat müddətinə verilir, rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda olduğu ünvanla getməli olduğu ünvan arasında məsafə və müalicə prosedurunun müddəti nəzərə alınır, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir və zərurət olduqda polis əməkdaşlarına təqdim edilir);
- 2 rəqəmi - hazırda fəaliyyətinə icazə verilən sahələr üzrə xidmətlərdən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini tərk etmək üçün (icazə 3 saat müddətinə gündə 1 dəfə verilir);
- 3 rəqəmi - yaxın qohumunun dəfnində iştirakla əlaqədar yaşayış yerini tərk etmək üçün.

Elan olunduğu kimi, COVID-19 virusu zəminində ölkədəki sanitar-epidemioloji vəziyyət mütəmadi təhlil edilərək mövcud vəziyyətə uyğun qaydalar tətbiq olunur. Bu səbəbdən COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə əlaqədar ölkədəki ümumi vəziyyət zərurət yaradarsa, xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi mümkündür.

COVID-19 virusuna qarşı bütün tədbirlər əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi naminə həyata keçirilir. Ötən müddət ərzində ölkə ərazisində virusun geniş yayılmasının qarşısını məhz dövlət-vətəndaş həmrəyliyinin nəticəsində almaq mümkün olmuşdur. Bu baxımdan, hər bir şəxsi sosial məsuliyyətdən irəli gələrək dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək olmağa, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməyə çağırırıq.

COVID-19 ilə bağlı hazırkı vəziyyətdə hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırırıq. COVID-19 virusu ilə mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzi kimi tövsiyə edilir.




# Azərbaycanda koronavirusla bağlı alternativ müalicə metodları sınaqdan keçirilə bilər

**Azərbaycanda COVID-19 xəstələri üçün nəzərdə tutulmuş kök hüceyrə kimi alternativ müalicə metodları Səhiyyə Nazirliyinin və TƏBİB-in müvafiq qurumlarının icazəsi ilə sınaqdan keçirilə bilər.**

"Trend"in məlumatına görə, bu barədə məlumat Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən tibb işçiləri üçün COVID-19 xəstəliyinə dair yenilənən müvəqqəti rəhbərlikdə öz əksini tapıb.

Sənəddə qeyd edilir ki, COVID-19 pozitiv klinik simptomları olan və ağciyərlərində kompyuter tomoqrafiya ilə bilateral infiltrasiyası görülən KRDS (Kəskin Respirator Distress Sindrom) hallarında immun plazma tətbiqi Səhiyyə Nazirliyinin və TƏBİB-in müvafiq qurumlarının icazəsi ilə tətbiq oluna bilər.

**Sənəddə bildirilir ki, pnevmaniya əlamətinə rast gəlinməyən və ya başqa bir səbəblə göstərişin olmadığı təqdirdə, bu xəstələrdə antibiotik müalicəsinin əlavə edilməsinə ehtiyac yoxdur.**

# Azərbaycan hakimiyyətinin "yeni siyasi konfiqurasiya" kursunda növbəti element - qatı müxalifətçilər bəraət və külli miqdarda pul alır...

**Ali Məhkəmənin Plenumu 23 aprel iclasında Respublikaçı Alternativ Partiyasının sədri İlqar Məmmədovun və hüquq müdafiəçisi Rəsul Cəfərovun cinayət işləri üzrə qərarlar verib. Hər iki şəxs bəraət alıb. Qərarlara əsasən, dövlət İlqar Məmmədova 234 min manat, Rəsul Cəfərova 57 min 400 manat mənəvi təzminat ödəməlidir.**



## *Elşad Musayev: "Obyektivlik naminə qeyd etmək lazımdır ki, Ali Məhkəmənin timsalında hakimiyyətin atdığı bu addım müsbət qiymətləndirilməlidir"*

İlqar Məmmədov 2013-cü il fevralın 4-də İsmayıllıda hökumət əleyhinə iğtişaşlar (23-24 yanvar 2013-cü il) təşkil etmək ittihamı ilə tutulub, 7 il azadlıqdan məhrumetmə cəzası alıb. 2018-ci il avqustun 13-də o, azadlığa buraxılıb və cəzasının qalan hissəsinin 2 il sınaq müddəti tətbiq olunmaqla şərti sayılmasına qərar verilib. 2019-cu il martın 28-də İlqar Məmmədov haqqında çıxarılmış 7 il azadlıqdan məhrumetmə cəzası 5 il 6 ay 9 günə endirilib, nəticədə İlqar Məmmədovun üzərindəki şərti həbs cəzasına son qoyulub.

İnsan Haqları Klubunun sədri olan Rəsul Cəfərov 2014-cü il avqustun 2-də həbs edilib. 2015-ci il aprelin 16-da o, qanunsuz sahibkarlıq, vergidən yayınma, vəzifə səlahiyyətlərini aşma və mənimsəmədə təqsirli bilinərək 6 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Həbsdə vergi borcunu ödədiyi üçün 2015-ci il iyulun 31-də Rəsul Cəfərovun cəzası 6 il 3 aya endirilib. 2016-cı il martın 17-də hüquq müdafiəçisi prezidentin əfv sərəncamı ilə azadlığa çıxıb. Qeyd edək ki, bəraət və maddi təzminat verilən hər iki şəxs qatı müxalifətçi mövqeyi ilə tanınır. Bir müddət əvvəl ölkə başçısı çıxışlarında ölkəmizdə iqtidarla müxalifət arasında yeni münasibətlərin formalaşmasının zərurətindən danışmışdı. Bu xüsusda qeyd edilmişdi ki, ölkəmizdə siyasi münasibətlər sistemində yeni konfiqurasiya formalaşır. Bunun ardınca biz bir sıra addımların atıldığını görürük. Parlamentdə təmsil olunan müxalif partiyaların nümayəndələri komissiyaların rəhbərliyinə təyin olundu. Qanunverici orqanın rəhbərliyində olan vitse-spikerlərdən biri müxalifət təmsilçisidir. Sonra ölkədə fəaliyyət göstərən iki müxalifyönümlü partiya dövlət qeydiyyatına alındı. Cərəyan edən bu hadisələrin fonunda qatı müxalifətçilərə bəraət və maddi təzminatın verilməsi hakimiyyətin yeni siyasi konfiqurasiya kursunda növbəti element sayıla bilərmi?

Müxalifyönümlü Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayevin sözlərinə görə, bu addımları normal qəbul etmək lazımdır:"Sülhəddin Əkbərin sədri olduğu Azad Demokratlar Partiyasının qeydə alınmasından sonra hakimiyyətin müxalifətə yönəlik daha bir addımının şahidi olduq. Ali Məhkəmənin Plenumu İlqar Məmmədov haqqında əvvəlki məhkəmə hökmlərini ləğv edib və ona bəraət verib. Eyni zamanda 234 min manat məbləğində mənəvi təzminat təyin edib. Qeyd olunur ki, ReAl partiyası bunu iqtidarın müxalifətə dialoq təşəbbüsü kimi qiymətləndirib. Fərqli, ittihamedici mövqelər də var. Əslində vəziyyət necədir? Ali Məhkəmə ilk dəfədir ki, belə vacib qərar qəbul etməklə əvvəlki məhkəmə hökmlərinin səhv olduğunu etiraf edir. Obyektivlik naminə qeyd etmək lazımdır ki, Ali Məhkəmənin timsalında hakimiyyətin atdığı bu addım müsbət qiymətləndirilməlidir. Biz illərlə demişik ki, məhkəmələrdə müxalifətçilərə, müstəqil media təmsilçilərinə qarşı qəbul olunmuş yanlış məhkəmə hökmləri ləğv olunub bəraətlə əvəz olunsun. İndiki halda bəraət verilib, bunun nəyi pisdir? Əgər Ali Məhkəmənin Plenumu əvvəlki məhkəmə hökmlərini qüvvədə saxlasa nə olacaqdı? Bu, presedent kimi yaxşıdır və çalışmalıyıq ki, bu cür qərarlar daha çox adama tətbiq olunsun. Məhkəmələr doğrudan da ədalət mühakiməsini həyata keçirsinlər, qanunsuz, ədalətsiz qərarlar, hökmlər verməsinlər. İqtidar-müxalifət mübarizəsi məhkəmə, həbsxana müstəvisində deyil, seçki müstəvisində olsun. Şəxsi münasibətlərimizdən, ideoloji mövqemizdən asılı olmayaraq istənilən şəxsə, xüsusən də müxalifət və media təmsilçilərinə yönəlik verilən bəraət hökmlərini məqbul hesab etməklə, belə addımların davam etməsini arzulayıram".

***Məhəmmədəli QƏRİBLİ***

# DİN-dən koronavirus günlərində KİV işçilərinə daha bir həssaslıq - şənbə-bazar məhdudiyyətləri də işləyən jurnalistlərə aid edilmədi...

**Respublikamızda tətbiq edilən karantin rejiminin qaydalarına bütün vətəndaşlar birmənalı olaraq riayət etməlidirlər. Bildiyimiz kimi, ölkəmizdə karantin elan olunsa da, həyati vacib olan sahələrdə çalışan insanlar fəaliyyət göstərir, onların xeyli bir hissəsi şənbə və bazar günləri istisna olmaqla hər gün işə gedirlər.**



## *Azər Həsrət: "Daxili İşlər Nazirliyinin bu nüansı nəzərə alması, əlbəttə, təqdirəlayiqdir"*

Son vaxtlar karantin qaydalarını pozanlar içində icazəsi olanların olduğu qeyd edilir. Onlar arasında qeyri-iş günlərində də onlara işdən verilmiş müvafiq arayışdan sui-istifadə edənlər tapılır.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov mətbuata bildirib ki, icazəsi olan şəxslər də şənbə və bazar günləri digər vətəndaşlar kimi müvafiq xidmətdən icazə almalıdırlar: "İcazəsi olan şəxslər qeyri-iş günlərində evdən çıxmaq üçün digər vətəndaşlar kimi 8103 qısa SMS xidmətindən istifadə etməlidirlər".

E.Zahidovun sözlərinə görə, həmin şəxslərə icazə yalnız işə gedib-gəlmək üçün verilib, istirahət günü onlar da digər şəxslərlə eyni hüquqa malik olurlar.

O bildirib ki, həftənin bütün günü işləyən şəxslər, o cümlədən, jurnalistlər polislər tərəfindən nəzərə alınacaqlar.

Qeyd edək ki, DİN Mətbuat Xidmətinin yaydığı məlumatda ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi dövründə xidməti vəsiqə və ya iş yeri haqqında arayış əsasında hərəkətinə yol verilən, eləcə də barəsindəki məlumatlar işəgötürən tərəfindən icaze.e-gov.az portalına daxil edilmiş şəxslərin yalnız həftənin iş günlərində icazə almadan hərəkət edə biləcəyi açıqlanıb.

Siyasi şərhçi və media üzrə ekspert Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, iş icazəsindən sui-istifadə edilməsi düzgün deyil: "O arayışın da üzərinə yazılıb ki, işə gedib-gəlmək üçündür. Təbii ki, bu arayışdan yalnız iş günlərində istifadə edilməsi məntiqlidir. Ona görə də Daxili İşlər Nazirliyi icazəsi olanlara bu xəbərdarlığı etmək məcburiyyətindədir ki, əllərindəki sənəddən vətəndaşlar sui-istifadə etməsinlər. Bu insanların bəziləri qeyri-iş günlərində də icazəsiz evdən çıxmağa, sərbəst gəzib-dolaşmağa meyl edirlər. Nazirliyin çağırışları və karantinin mövcud qaydaları onu tələb edir ki, insanlar yalnız işə gedib-gəlmək üçün həmin icazədən istifadə edə bilərlər. Jurnalistlərə gəlincə, dünyanın hər yerində indiki karantin dövründə də, müharibələrdə də jurnalistlərin sərbəst hərəkəti üçün mümkün qədər şərait yaradılır. Çünki media elə bir sahədir ki, onun fəaliyyətində limit yoxdur, həftənin 7 günü 24 saat jurnalistlər dayanmadan işləyir, insanları informasiya ilə təmin edirlər. Bu baxımdan, Daxili İşlər Nazirliyinin bu nüansı nəzərə alması, əlbəttə, təqdirəlayiqdir. Biz açıq görürük ki, karantin dövründə jurnalistlərin fəaliyyətinə bu və digər mənada əngəl törətməyə cəhdlər yoxdur".

*"Azərbaycan dövləti karantin dövründə medianın azad, sərbəst fəaliyyəti üçün bütün lazımi şəraiti yaradır"*

A.Həsrət hesab edir ki, təsadüfən anlaşılmazlıq halları baş verə bilir, amma o da dərhal öz həllini tapır. Müsahibimizin sözlərinə görə, karantin rejimində jurnalistlərin öz peşə fəaliyyətini həyata keçirməsi üçün bütün şərait yaradılıb. "Bu baxımdan, düşünürəm ki, Daxili İşlər Nazirliyi, Nazirlər Kabineti yanında Operativ Qərargah, bütövlükdə, Azərbaycan dövləti karantin dövründə medianın azad, sərbəst fəaliyyəti üçün bütün lazımi şəraiti yaradır. Əlbəttə, bu da təqdir olunası bir yanaşmadır" - deyə A.Həsrət vurğuladı.

***İradə SARIYEVA***

**Dünya bazarında neftin qiymətinin kəskin düşməsi neft ixrac edən ölkələrin vəziyyətini pisləşdirib. Hətta vəziyyət o həddə çatıb ki, neft hasilatında önəmli payı olan Nigeriya, Qabon kimi ölkələr müxtəlif qurumlardan kreditlər istəməyə məcbur qalıblar.**

# Dünyanın "bərkgedən" neft ölkələri pul dilənməyə başladı - Nigeriya , Qabon qapılardadır, Azərbaycanın böyük üstünlüyü və fərqləri...

## *Asif İbrahimov: "Dar gün üçün lazım olan tədarükü vaxtında görə bildiyimiz üçün biz heç kimdən borc istəmirik"*

Nigeriyanın 7 milyardlıq borc istəyinə Beynəlxalq Valyuta Fondu və digər nüfuzlu maliyyə qurumları müsbət cavab verməyib. Neft nəhəngi olan Səudiyyə Ərəbistanı və Rusiya da yaranmış vəziyyətlə bağlı müəyyən narahatlıq keçirir. Səudiyyə Ərəbistanı neftdən aldığı zərbəni yumşaltmaq üçün 32 milyard vəsait ayırıb. Azərbaycanın da büdcəsinin əhəmiyyətli hissəsini neft gəlirləri təşkil edir. Buna baxmayaraq, Azərbaycan heç kimdən borc istəmir. Bu fərq nədədir?

Beynəlxalq qiymətləndirmə üzrə ekspert, iqtisadçı Asif İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, dünya birjalarında neftin qiymətinin aşağı düşməsi danılmaz reallıqdır:"Bunun da səbəbi tələbatla bağlıdır. Sərhədlərin bağlanması, bir çox dövlətlərdə karantin qaydalarının hökm sürməsi belə vəziyyəti yaradıb. Maşınlar sürülmür, təyyarələr üçüşlarını təxirə salıb. Bu da bir çox şirkətlərin anbarlarında neftin yığılıb qalmasına səbəb olub. Tələbət olmadığına görə neftin qiyməti dünya birjalarında aşağı düşür. Artıq şirkətlər hətta anbarlarından nefti daşıyan şirkətlərə pul ödəyirlər. Yəni deyirlər ki, çıxardığım nefti pulsuz apar, üstündə də pul verirəm. Neft böhranından əvvəl də bizim hesablamalarımız göstərirdi ki, 2020-ci ildə ölkələrin çoxu borc kreditləri ilə bağlı maliyyə qurumlarına müraciət edəcək. Neftlı bağlı vəziyyətin kəskin dəyişməsi bu prosesi bir qədər də sürətləndirdi. Artıq bir çox neft ixrac edən ölkələr bununla bağlı müraciətlər ediblər. Azərbaycanın adı o siyahıda yoxdur. Önümüzdəki bir müddətində də Azərbaycanın bununla bağlı ehtiyacı olmaycaq. Bu, başlıca olaraq Azərbaycanın iqtisadi potensialı ilə bağlıdır. Ölkəmiz neftin baha qiymətə satıldığl dönəmdə də postneft dönəminin yarada biləcəyi reallıqları nəzərdən keçirib. Ölkədə qeyri-neft sektorunun inkişafı ilə bağlı zəruri və mükəmməl qanunverici baza hazırlanıb. Həmin istiqamətdə ciddi addımlar atılıb.




Artıq ölkəmizdə qeyri neft sektoru inkişaf edir və büdcəyə gəlirlər verir.

Neft gəlirlərinin şaxələndirilməsi və həmin vəsaitlərin səmərəli idarə olunması ölkəməzin valyuta ehtiyatlarını artırıb. Yəni dar gün üçün lazım olan tədarükü vaxtında görə bildiyimiz üçün biz heç kimdən borc istəmirik. Dünya iqtisadiyyatı bənzər mənzərə ilə dəfələrlə rastlaşıb. Hətta iqtisadiyyatda "Holland sindromu" deyilən bir anlayış da mövcuddur. Bu baxımdan da, bütün neft ixrac edən ölkələr neftin daimi olmadığını düşünüb, qabaqlayıcı tədbirlər görməliydi. Yəqin ki, pandemiyadan sonra neftin qiymətində artım olacaq və vəziyyət bir qədər stabilləşməyə doğru gedəcək".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Azərbaycanda baş verən son siyasi proseslərə erməni mediası xüsusi yer ayırır. Müxalifyönümlü fəallara Ali Məhkəmənin bəraət və maddi təzminat verməsi də onların diqqət mərkəzindədir. Görünən budur ki, erməni təbliğat maşını ReAl sədri İlqar Məmmədov ətrafında baş verənləri öz maraqları üçün interpretasiya edir.**

# İlqar Məmmədovun "XİN" naziri təyinatı mümkünsüzdür - erməni variantının məqsədləri nədir...

## *Əhəd Məmmədli: "Nəzərə almalıyıq ki, onlar bizimlə həm də informasiya mübarizəsi aparırlar"*



Onlar Azərbaycanın bəzi millət vəkillərinin xarici işlər naziri Elmar Məmmədyarov haqda səsləndirdiyi tənqidi fikirlərlə də bağlı müəyyən "nəticəyə" gəliblər. Həmin ölkənin tanınmış siyasi saytları, güya Azərbaycan hakimiyyətinin bu istiqamətdə xüsusi planının olduğuna işarə edir və yeni xarici işlər nazirinin ReAl sədri İlqar Məmmədovun təyin olunacağını qeyd edirlər. İlk baxışdan bu inandırıcı və məntiqi sayılmır. Çünki XİN rəhbəri kimi konfidensiallıq tələb edən vəzifəyə müxalif partiya sədrinin təyinatına hakimiyyətin gedəcəyi çox risqli addım sayıla bilər. Düzdür, son zamanlar Azərbaycanın siyasi sistemində islahatların getdiyinin şahidi oluruq. Bu özünü parlament idarəçiliyində, siyasi partiyaların qeydiyyatında və müxalif fəallara verilən bəraət hökmlərində göstərir. Ancaq bu heç də o anlama gəlmir ki, hakimiyyət müxalifətlə vacib nazir portfellərini də bölüşməyə hazırdır. Hələlik belə zərurət üfüqdə də görünmədiyi üçün, maraqlıdır, erməni mediasının İlqar Məmmədovun üzərindən belə dezinformasiyaları tirajlamaqda hansı maraqları ola bilər?

Müxalifyönümlü Ağ Partiyanın funksioneri, politoloq Əhəd Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin yaydığı bu versiyanı tamamilə absurd sayır:"Bu xəbərin heç bir məntiqi əsası yoxdur. Hakimiyyətin xarici işlər naziri kimi önəmli bir postu müxalifətə güzəştə gedəcəyi inandırıcı sayılmır. İslahatlar fonunda hansısa müxalifətçinin bəzi vəzifələrə təyin oluna biləcəyi inandırıcı sayıla bilər. Biz bunu Rusiya praktikasında görmüşük. Dmitriy Medvedyevin prezidentliyi dönəmində Kirov vilayətinin qubernatoru postuna bir müxalifət liderini təyin etmişdilər. Bizdə müəyyən icra qurumlarına müxalifətçilərin təyin olunması baş tuta bilər, amma XİN rəhbəri səviyyəsində belə dəyişiklik qətiyyən inandırıcı deyil. Elmar Məmmədyarovun siyasətindən mən də razı deyiləm və daim onu tənqid etmişəm. Hesab edirəm ki, onun yerinə daha "dişli" adam gəlməlidir. Hətta müxalifətdən ora kiminsə təyin olunacağını təxmin etsək, bu, İlqar Məmmədov olmamalıdır. Erməni mediası Azərbaycan siyasətini yaxından izləyir. Yaxşı olardı ki, Azərbaycan mediası da sizin kimi olsun və erməni mediasını yaxından izləsin. Bunun Ermənistanda hansı yönümlü media tərəfindən yayılması da maraqlıdır. Ola bilsin ki, İlqar Məmmədovun Qərblə yaxınlığını əsas gətirərək, Ermənistandakı qərbyönümlü media bu mövzunu qabardır. Başqa bir niyyətləri isə Azərbaycanla bağlı maksimum dezinformasiyanın dövriyyəyə buraxılması ola bilər. Nəzərə almalıyıq ki, onlar bizimlə həm də informasiya mübarizəsi aparırlar".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənilər işğal etdikləri ərazilərimizdə azərbaycanlılara məxsus yaşayış məskənlərinin adlarını kütləvi şəkildə saxtalaşdırır

**Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycan ərazilərində - Dağlıq Qarabağ və ətraf rayonlarda azərbaycanlılara məxsus yaşayış məskənlərinin və digər coğrafi obyektlərin adları kütləvi şəkildə dəyişdirilərək erməniləşdirilir. Azərbaycan-türk mənşəli toponimlərin erməniləşdirilməsi prosesinə hələ ötən əsrlərdən start verilib, işğal dövründə isə "bu iş başa çatdırılıb".**

AMEA-nın akademik H.Əliyev adına Coğrafiya İnstitutunun aparıcı elmi işçisi, geologiya-mineralogiya elmləri namizədi Rəşid Fətəliyevin qeyd etdiyinə görə, Azərbaycan Respublikası ərazisində də yüz minlərlə toponim mövcuddur, yalnız yaşayış məntəqələrinin (oykonimlərin) sayı 4550-dən çoxdur, lakin toponimlərin böyük əksəriyyətini oronimlər (dağ, dərə, yamac), hidronimlər (çay, göl, bulaq) və s. təşkil edir ki, onların sayı haqqında hələlik kifayət qədər dəqiq məlumat yoxdur.

Alim qeyd edir ki, Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ətraf yeddi rayonun ərazisindəki yer-yurd, çay, dağ və s. adların dəyişdirilməsi prosesi həyata keçirilir. "...İşğal altında olan ərazilərimizin sakinləri kimi, coğrafi obyektlərimizin adları da soyqırıma məruz qalmış və hələ ki, qalmaqda davam edir. Azərbaycanlılara məxsus yaşayış məskənlərinin və digər coğrafi obyektlərin adları kütləvi şəkildə dəyişdirilərək erməniləşdirilir. Düşmənin məqsədləri aydındır: qədim türk-Azərbaycan adlarını yaddaşlardan silmək, bu yerlərin guya qədimdən onlara məxsus olduğunu sübut etmək və bununla da işğal etdikləri torpaqları özününküləşdirmək üçün hüquqi zəmin yaratmaq. Azərbaycan Respublikası ərazisində mövcud olan yaşayış məskənlərinin böyük əksəriyyəti etnotoponimlər, patronimlər və antroponimlərdir, yəni bu ərazidə yaşamış xalqların, tayfaların, nəsillərin, soyların və şəxslərin ilkin adlarını özlərində daşıyan toponimlərdir ki, onlar da xalqımızın keçmişini, həmin ərazilərdə məskunlaşma tarixini özündə əks etdirir. Ermənilər xalqımıza məxsus coğrafi adları dəyişməklə məhz keçmişimizin, tariximizin izlərini o yerlərdən silib, öz saxta, mifik iddialarını və şovinist ideyalarını bizim ərazilər hesabına gerçəkləşdirmək niyyətindədirlər" - deyə alim qeyd edir.

Alimin bildirdiyinə görə, AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun aparıcı elmi işçisi, coğrafiya elmləri namizədi Mahirə Abbasova şöbənin əməkdaşları ilə birlikdə təkcə Qarabağ bölgəsində son 27 ildə erməniləşdirilərək dəyişdirilmiş 280-ə yaxın coğrafi adın siyahısını tərtib edib və dəyişmə dərəcəsinə görə təsnifatlandırıblar. "Məsələn, ermənilər iri yaşayış məskənlərindən olan Ağdam şəhərini - Akna; Xocalını - İvanyan; Qubadlını - Sanasar; Laçını - Berdzor; Kəlbəcəri - Karvacar; Cəbrayılı - Crakan adlandıraraq tam, bəzi yer adlarını qismən, digərlərini isə erməni dilinə tərcümə edərək dəyişmişlər. Hətta çap etdirdikləri xəritələrdə və kütləvi informasiya vasitələrində Azərbaycanın ikinci böyük şəhəri olan qədim Gəncə şəhərini "Qandzak", Bərdə şəhərini "Partav", Kəpəz dağını "Alparak" kimi yazmaları beynəlxalq hüquq normalarına etinasızlıq, Azərbaycan xalqına qarşı isə mənəvi terror olduğu danılmazdır. Müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozmaqla kifayətlənməyərək, coğrafi adlarımızı təcavüzə, soyqırıma məruz qoymuş Ermənistan, onun səlahiyyətli nümayəndələri beynəlxalq ictimaiyyət və qurumlar tərəfindən qınanılmalı, onların bu şovinist niyyətli əməlləri kəskin pislənilməli, mənəvi terror və işğal kimi qiymətləndirilməlidir".

Alim vurğulayır ki, Ermənistan bu gün də müstəqil Azərbaycan Respublikasının suveren hüquqlarını pozaraq, öz mənfur etnik təmizləmə siyasətini kütləvi informasiya vasitələri, o cümlədən, internet şəbəkələri vasitəsilə toponimlərimizə təcavüz etməklə, coğrafi adlarımızı dəyişməklə davam edir. "Lakin Azərbaycan xalqı ermənilərdən fərqli olaraq, heç vaxt öz ərazisində olan digər xalqlara, etnik qruplara mənsub coğrafi adları dəyişdirməyib və indi də dəyişdirmir. Azərbaycan çoxmillətli unitar dövlətdir, onun ərazisində 10-a qədər dilə mənsub coğrafi adların olmasına baxmayaraq, onların böyük əksəriyyəti - 70 faizi Azərbaycan-türk mənşəlidir. Azərbaycan Respublikasında dövlət və onun rəhbərləri tərəfindən milli-etnik münasibətlər sahəsində tolerant siyasət yürüdülür və dilindən, dinindən və irqi mənsubiyyətindən asılı olmayaraq, bütün xalqlara və etnik qruplara məxsus coğrafi adlara hörmətlə yanaşılır, diqqət və qayğı göstərilir" - deyə Rəşid Fətəliyev qeyd edir.

Rüstəm Məmmədov və Xaqani Məmmədovun müəlllifi olduğu "Müasir beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qanunsuz və hüquqa zidd fəaliyyəti" kitabının elektron variantında işğal olunmuş ərazilərdə Azərbaycan-türk toponimlərinin erməniləşdirilməsi məsələsinə də geniş yer verilib. Nəşrdə qeyd edilir ki, Zəngəzurda toponimlərin dəyişdirilməsi erməni vəhşiliyinin digər istiqaməti bu vilayətin qədim türk torpağı olduğunu göstərən toponimlərin kütləvi dəyişdirilməsidir. Erməni işğalı nəticəsində dəyişdirilmiş Azərbaycan-türk toponimlərinin saysız olduğunu qeyd edən müəlliflərin fikrincə, ermənilərin məqsədi əzəli torpaqlarımızdan bizim izlərimizi silmək olub: "...Uydurma "Böyük Ermənistan" iddiasını gerçəkləşdirmək üçün ermənilər tarixi saxtalaşdırmaq ənənəsini davam etdirirlər. Tarixi Azərbaycan torpaqlarında XX əsrin sonlarında müstəqil Ermənistan dövləti qurulduqdan və Dağlıq Qarabağ və onun ətraf rayonları işğal edildikdən sonra Azərbaycanın işğal olunmuş ərazilərində addəyişmə əməliyyatlarına başlanmışdır. Son dövrlərdə İrəvanda çap edilən xəritələrdə həm işğal olunmuş ərazilər və Dağlıq Qarabağ Ermənistanın xəritəsinə salınır. Qondarma "Dağlıq Qarabağ Respublikası"nın "Ali Sovetinin Rəyasət Heyətinin" qərarları ilə işğal olunmuş ərazilərdə yeni inzibati ərazi vahidləri yaradılır və "tarixi adların qaytarılması" adı altında toponimlər dəyişdirilir. Qondarma "DQR"in "Ali Soveti"nin 2 dekabr 1993-cü il tarixli qərarı ilə işğal olunmuş Laçın, Qubadlı və Zəngilan rayonlarını əhatə edən Kaşatağ rayonu yaradılmış və rayon mərkəzi kimi, Laçın şəhərinin adı dəyişdirilərək "Berdzor" adlandırılmışdır. Xocalı rayonu və Ağdam rayonunun işğal olunmuş əraziləri Əsgəran rayonunun, Füzuli və Cəbrayıl rayonlarının işğal altında olan əraziləri Hadrut rayonunun ərazisi kimi göstərilir. Son vaxtadək qondarma "DQR"in "Ali Sovetinin Rəyasət Heyəti"nin qərarları ilə 120-dən artıq azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilmişdir. Ağdam şəhəri "Akna", Füzuli şəhəri "Varanda", Zəngilan şəhəri "Kovsakan", Qubadlı şəhəri "Sanasar", Kəlbəcər şəhəri "Karvacar", Cəbrayıl şəhəri "Crakan" adlandırılmışdır. Dünyanın gözü qarşısında soyqırıma məruz qoyulan Xocalı şəhəri onun işğal planını hazırlayan Rusiya ordusunun sabiq generalı Xristofer İvanyanın adı ilə "İvanyan" adlandırılmışdır. 2009-cu ildə İrəvanda "Tiqran Mec" nəşriyyatında 336 səhifə həcmində erməni, rus və ingilis dillərində A4 formatında rəngli kitab-albom çap edilmişdir. 12 fəsildən ibarət olan alboma tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan Respublikası, Gürcüstan, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin ərazisində mövcud olan 1116 tarixi abidənin şəkilləri daxil edilmişdir. Kitab mifik "Böyük Ermənistan" ("Kiçik Hayk" və "Böyük Hayk") ərazisini, təqribən 430 min kv. km ərazini əhatə edir. Həmin şəkillərin yalnız təqribən 6 faizi müasir Ermənistan Respublikasının ərazisindədir. İşğal ərazisindəki Murov dağının adı "Mrav", Ziyarət dağının adı isə "Dizapayt", Kəpəz dağının adı "Alqarak" kimi verilmişdir. Göygölün adı "Kaputan" kimi verilir. Tərtər çayı "Trtu"), Qurucay "İşxanaget" kimi oxuculara təqdim edilir. Ağdam rayonunda Xaçınçayın sahilində yerləşən "Şahbulaq qıfılı" memarlıq abidəsi "Tiqranakert" kimi təqdim edilir. Halbuki, erməni tarixçiləri bir zamanlar "Tiqranakerti" Şərqi Anadoluda lokalizə etmişdilər. Erməni saxtakarlığı İrəvanda çap edilən "Ermənistanın milli atlası" ikicildliyində son həddə çatdırmışdır. 230 səhifə həcmində Milli Atlasın birinci cildinə 65 saxta xəritə daxil edilmişdir. 260 səhifə həcmində Milli Atlasın ikinci cildi 2009-cu ildə çap edilmişdir. Bu cildə indiki Ermənistan respublikasını, qondarma "DQR"i və erməni diasporunun yaşadığı əraziləri əhatə edən 220 xəritə daxil edilmişdir. Bu xəritələrdə azərbaycanlılara məxsus bütün toponimlər mədəni terrora və linqivistik soyqırıma məruz qoyulmuşdur. Lakin diqqətçəkən bir məqam ondan ibarətdir ki, müəyyən mərhələlərlə xarici ölkələrdən gəlib azərbaycanlıların yaşamış olduqları ərazilərdə məskunlaşan ermənilər indinin özündə də yer-yurd adlarını elə əvvəlki adları ilə - yəni azərbaycanlıların vaxtilə verdikləri adlarla çağırırlar. Oykonimləri, hidronimləri, oronimləri özündə əks etdirən bir sıra spesifik saytlarda yerləşdirilən xəritələrdə, xarici turizm şirkətlərinin saytlarında, yol bələdçiliyi üçün buraxılan nəşrlərdə, astronomik portallarda keçmiş adlar əsasən saxlanır. Məsələn, www.astrolab.ru, - www.travelpost.com, www.fallingrain.com saytlarında müasir Ermənistan Respublikasında mövcud olan, uzunluq və en dairəsini göstərən minlərlə toponim öz əksini tapmışdır ki, onların da mütləq əksəriyyəti türkmənşəli əski adlarını özündə saxlayır".

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Mnatsakanyanın "ərazi güzəşti olmayacaq" bəyanatına Rusiya XİN-dən cavab - ətraf rayonlar qaytarılmalıdır...

**ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi bizim mövqeyimiz Rusiya, ABŞ və Fransanın rəhbərlərinin birgə bəyanatlarında dəfələrlə səsləndirilib. Bu, Ermənistan XİN başçısı Zöhrab Mnatsakanyanın rusiyalı həmkarı Sergey Lavrovun danışıqlar prosesindəki sənədlərdə Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllinə dair müddəaların əksini tapması bəyanatına "Ermənistan Azərbaycana heç bir ərazi güzəştinə getməyəcək" fikirlərinə münasibət bildirən Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin şərhində deyilir.**



Rusiya XİN-də qeyd edilib ki, Rusiyanın mövqeyi Helsinki Yekun Aktının başlıca prinsiplərinə, o cümlədən, güc tətbiq etməmək, ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə hüququ prinsiplərinə əsaslanır: "Bu bəyanatlardakı nizamlanma elementlərinə Dağlıq Qarabağ ətrafında yerləşən ərazilərin qaytarılması, həmçinin, sakinlərin iradəsini bildirməsi yolu ilə Dağlıq Qarabağın qəti hüquqi statusunun müəyyən edilməsi də daxildir. Nəzərdən keçirilmiş və hazırda baxılan sənəd və təkliflərə gəlincə, Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov onları sadalayıb".

### Əli Orucov: "Həmsədr ölkə olan Rusiya tərəfindən belə bir yanaşmanın ortaya qoyulması müsbət addımdır"

Şərhdə o da deyilir ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi kifayət qədər həssas məsələdir: "Bu mövzunu ictimai debatlara çevirmək səmərəsizdir. Buna əsaslanaq ki, nizamlanma məsələsi yaranan format çərçivəsində danışıqların gedişində nəzərdən keçirilməlidir. Bu mövzuda məsləhətləşmələr davam edir. Məsələn, aprelin 21-də Ermənistanın və Azərbaycanın Xarici İşlər nazirlərinin həmsədrlərin iştirakı ilə keçirilən videokonfransı buna sübutdur".

Göründüyü kimi, Rusiya XİN-i də öz mövqeyini bildirərək ətraf rayonların qaytarılmasının vacibliyinə eyham vurub.

### "...ikili standart yanaşmasından əl çəkməyiblər"

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun fikrincə, həmsədr ölkə olan Rusiya tərəfindən belə bir yanaşmanın ortaya qoyulması müsbət addımdır: "Ən azından, müəyyən qədər Ermənistana öz yerini göstərdilər. O mənada ki, ilkin mərhələdə ətraf rayonlar qaytarılmalıdır. Bununla yanaşı, Mnatsakanyanın məlum açıqlaması daxili auditoriyaya hesablanıb. Məsələ ondadır ki, Lavrovun danışıqların münaqişənin mərhələli həll variantı üzərində aparıldığı haqqında açıqlamasından sonra Ermənistanda Mnatsakanyana qarşı kəskin ittihamlar səsləndirildi. Hətta onun istefası tələb edildi. Belə bir fonda Mnatsakanyanın bu cür bəyanatlar verməsi ola bilsin erməni cəmiyyətini bir qədər sakitləşdirməyə yönəlib. Lakin o da diqqətdən qaçmamalıdır ki, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri, xüsusən də Rusiya problemin həllində ikili standart yanaşmasından əl çəkməyiblər. Kreml münaqişənin həll olunmasını hələ ki, istəmir.

**Ona görə də yaxşı olardı ki, Rusiya daha konkret mövqe ortaya qoysun. Hesab edirəm ki, rəsmi Moskva belə bir mövqe sərgiləsə, o zaman Ermənistan işğala son qoyar. Bütün bunlara rəğmən, Azərbaycan milli həmrəyliyə əsaslanaraq, ordumuzun gücü ilə münaqişəni həll edə bilər. O üzdən, hər zaman hərb variantına hazır olmalıyıq".**

***Vidadi ORDAHALLI***

# Qarabağ danışıqları mərhələli həll planı üstündə gedir - ermənilərin bunu danmasının arxasındakı mahiyyətlər...

**Dağlıq Qarabağ probleminin həlli istiqamətində müəyyən canlanma hiss edilir. Tərəflər arasında keçirilən videogörüş və Rusiya xarici işlər naziri Sergey Lavrovun verdiyi bəyanatlar hər iki ölkədə geniş müzakirələrə yol açıb. Sergey Lavrov bir neçə gün öncə Qarabağ probleminin məqbul həll variantlarından danışarkən bildirib ki, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri hərbi əməliyyatların qızğın vaxtlarında qəbul olunub və bu qətnamələrdə hərbi əməliyyatların tam dayandırılması və nizamlanmaya keçid əksini tapıb:**



"Bəli, bu qətnamələrdə Azərbaycan Respublikasının ərazi bütövlüyü təsdiq olunub". Bu sözlərin ardınca Lavrov konfliktin mərhələli şəkildə nizamlanmasının zəruriliyi bildirib:"Bu sənədlərdə münaqişənin mərhələli şəkildə həlli əksini tapıb. Birinci mərhələyə daha aktual problemlərin - Dağlıq Qarabağ ətrafındakı bir sıra rayonların azad olunması və nəqliyyat, iqtisadiyyat və digər kommunikasiyaların blokadadan çıxarılması daxildir".

Görünən budur ki, hazırda danışıqlar gedir. Belə təmaslar varsa, deməli, masada mərhələli həll planı müzakirə olunur. Ancaq nədənsə erməni tərəfi bunu danır. Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Naqdalyan son açıqlamasında deyib ki, Ermənistan Qarabağın öz müqəddəratını təyin etmə hüququnu nəzərdə tutmayan heç bir həll variantını qəbul etmir. Naqdalyanın sözlərinə görə, 2019-cu il aprelin 15-də Azərbaycan, Rusiya, Ermənistan və Minsk Qrupunun birgə açıqlamasında danışıqların ümumi konturları müəyyən olunub. O, həmin bəyanatda mərhələli həll planı barədə heç bir söz olmadığını əlavə edib:"Ermənistan üçün münaqişənin mərhələli həlli isə bağlı hələ 2018-ci ilə qədər təklif edilmiş plan qəbuledilməzdir. 2018-ci ildən isə mərhələli həll planı ilə bağlı danışıqlar aparılmır".

### Qabil Hüseynli: "Ermənistan məsələni mərhələli şəkildə deyil, bir müqavilə ilə həll etməyə çalışır"

Görünən budur ki, Qarabağ danışıqları mərhələli həll planı üstündə gedir. Ermənilərin bunu danmasının arxasındakı mahiyyətlər nədən ibarət ola bilər? Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, proses mərhələli şəkildə həyata keçməlidir:"Çünki Ermənistan böyük əraziləri işğal edib və Dağlıq Qarabağı da müstəqilləşdirməyə can atır. Buna görə də, məsələni mərhələli şəkildə deyil, bir müqavilə ilə həll etməyə çalışır. Bu qətiyyən mümkün deyil. Azərbaycan da öz ərazi bütövlüyünü tam bərpa etmək istəyir. Ermənilər bu problemi elə bir dolaşıq hala salıblar ki, bunu yalnız mərhələ-mərhələ həll etmək mümkündür. Onlar BMT-nin qətnamələri və sonrakı danışıqlar prosesində əldə olunan prinsipləri saya salmırlar. Gah deyirlər format dəyişməlidir, indi də danışıqlardan çıxmaqla bizi hədələyirlər. Dağlıq Qarabağla bağlı ən praqmatik həll modelini vaxtilə Ermənistanın 1-ci prezidenti Levon Ter-Petrosyan irəli sürmüşdü. Ter-Petrosyanın təklif etdiyi həll planı da mərhələli idi. Birinci mərhələdə "Laçın dəhlizi" saxlanmaqla Dağlıq Qarabağ ətrafında bütün rayonlar azad edilir, kommunikasiyalar, sərhədlər açılır, iki ölkə arasında gediş-gəliş bərpa olunur, qarşılıqlı etimad mühiti yaradılır, Dağlıq Qarabağın yekun statusu isə ikinci və sonuncu mərhələyə saxlanırdı. Ancaq indiki Ermənistan hakimiyyəti bu həll modelini yaxına buraxmaq istəmir. Lavrov çıxışı zamanı müharibənin dayandırılmasının vacibliyini qeyd edib. Məsələ ondadır ki, Azərbaycan heç bir ölkə ilə müharibə aparmır. Müharibə Azərbaycana qarşı açılıb, torpaqları işğal olunub, bir milyondan artıq vətəndaşı torpaqlarından didərgin salınıb. Bu ədalətsiz, qeyri-insani bir müharibədir və səbəbkarı Ermənistandır. Yaxşı olardı ki, bu yöndə onlara ciddi təzyiqlər edilsin. Azərbaycan bu müharibəyə zorla cəlb edilib. Biz özümüzü müdafiə etməyə məcbur olmuşuq. Bununla belə, Ermənistan bəzi qüvvələrin hesabına qanuni torpaqlarımızı işğal edib. Bu gün danışıqlar prosesindən danışmalı olsaq, birinci növbədə bu məsələ aktuallaşmalıdır. Rusiya və digər vasitəçilər bu məsələdə məsuliyyəti tərəflərin üzərinə bərabər qoymamalıdır. Ermənistan konstruktivlikdən nə qədər yayınsa da, xeyri yoxdur. Azərbaycan, hərbi güclə olsa belə, öz ərazi bütövlüyünü təmin edəcək. Məsələ burasındadır ki, danışıqlar prosesi predmetli danışıqlara getmir. Yəni erməni tərəfi danışıqlar prosesini 2-ci, 3-cü dərəcəli məsələlər ətrafında saxlayır. Nəticə etibarilə Dağlıq Qarabağın hüquqi statusunu, onun ətrafındakı işğal edilmiş 7 rayonun geri qaytarılması ilə bağlı məsələləri müzakirə etməyə vaxt çatmır".

***Məhəmmədəli QƏRİBLİ***




**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Ermənistanın Qarabağ məsələsində böyük yalanı üzə çıxdı - İrəvan qaçılmaz sonluğun dərkindən isterika həddində...

**Dağlıq Qarabağ münaqişəsi ətrafında son günlərdə diplomatik aktivliyin əhəmiyyətli dərəcədə artması və bu fonda yenə bir-birinə zidd çoxsaylı fikirlərin səslənməsi müşahidə olunur. Xüsusən də konfliktin mərhələli həll əsasında çözümü ilə bağlı maraqlı bir vəziyyət hökm sürməkdədir. Ermənistan belə bir şeyin olmadığını iddia etsə də, reallıq əslində bunun tam əksini göstərir.**

Burada xatırlatmaq yerinə düşərdi ki, aprelin 21-də Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla onun erməni həmkarı Zöhrab Mnatsakanyanın ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə videokonfrans formatında görüşü keçirilib. Bu görüşdəki müzakirələr barədə ətraflı məlumat verilməsə də, elə həmin gün Qorçakov Fondunun təşkil etdiyi onlayn Dəyirmi masa zamanı Rusiyanın xarici işlər naziri Sergey Lavrov çox maraqlı fikirlər səsləndirb. Lavrov BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələri barədə danışarkən bildirib:"Hazırda danışıqlar masasında Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllini təklif edən bir sənəd var". Bununla Lavrov, faktiki olaraq, mərhələli həll variantının yeganə müzakirə predmeti olduğunu diqqətə çatdırdı. Elə bu da dərhal Ermənistanda mövcud hakimiyyətin sərt ittiham obyektinə çevrilməsi ilə müşayiət edildi. Bunlar fonunda Ermənistan Xarici İşlər Nazirliyinin bu ölkənin 2018-ci ildən bəri münaqişənin mərhələli həllinə əsaslanan danışıqlar aparmadığını iddia edən açıqlaması yayıldı. Məsələyə cavab verən Azərbaycan tərəfi isə bildirdi ki, İrəvanın bu bəyanatı, yerli ictimaiyyəti sakitləşdirmək üçün verildiyi aydın olsa belə, çox gülüncdür. Azərbaycan XİN-in Mətbuat Xidməti İdarəsinin şərhində bu xüsusda bildirilir: "Ermənistan XİN-in dürüst şəkildə öz əhalisini münaqişənin həlli üzrə aparılan sülh prosesi barədə məlumatlandırması daha doğru olardı. 2018-ci ildə bu ölkədə hakimiyyət dəyişikliyi baş verəndən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində, sonuncu 21 aprel tarixli videokonfrans da daxil olmaqla, 10 görüş keçirilib. Ermənistan XİN-in məntiqi ilə belə çıxır ki, iki ölkə naziri, eləcə də 3 ölkənin həmsədrləri və xarici işlər nazirlərinin heç bir işi yoxmuş kimi birgə vaxt keçirib söhbətləşmək üçün görüşüblər?!

Azərbaycanın münaqişənin həlli prosesi və danışıqların əsas prinsipləri barədə mövqeyi, ən yüksək səviyyə də daxil olmaqla, hər zaman səsləndirilib. Vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin də mövqeyi onların verdikləri bəyanatlarda, o cümlədən 2019-cu il 9 mart tarixli bəyanatda açıq şəkildə ifadə olunub. Bunların hamısında münaqişənin mərhələli şəkildə həll olunması elementləri aydın şəkildə görünür. Həmçinin danışıqlar eyni formatda və eyni gündəlik üzrə davam edir. Belə olmasaydı, 21 aprel tarixində məlum bəyanatını səsləndirən Ermənistan xarici işlər naziri bir neçə saat sonra videokonfransda iştirak edib müzakirələrə qatılmazdı. Ermənistan xarici işlər nazirinin özünün də razılaşdırdığı kimi, əhalisinin sülhə hazırlanması istiqamətində addımlar atması daha faydalı olar". Azərbaycanın bu məsələdə həqiqəti qabardıb, Ermənistanın isə yalan dediyini Rusiya Xarici İşlər Nazirliyinin məsələyə yenidən münasibət bildirməsi də təsdiqlədi. Nazirlikdən verilən açıqlamada bu xüsusda bildirilib:"Rusiya xarici işlər naziri Sergey Lavrov Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar prosesində baxılmış və baxılan sənədləri, təklifləri sadalayıb".

Ermənistan XİN başçısı Zöhrab Mnatsakanyanın rusiyalı həmkarı Sergey Lavrovun danışıqlar prosesindəki sənədlərdə Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllinə dair müddəaların əksini tapması bəyanatına "Ermənistan Azərbaycana heç bir ərazi güzəştinə getməyəcək" deyə cavab verməsinə münasibət bildirən Rusiya XİN-in İnformasiya və Mətbuat Departamentindən Moskvanın ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinin Rusiya, ABŞ və Fransa rəhbərliyi səviyyəsində birgə bəyanatlarda dəfələrlə səsləndirildiyi vurğulanıb:"Bu mövqeyin əsasında güc tətbiq olunmaması, ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsipləri daxil olmaqla, Helsinki Yekun aktının əsas prinsipləri dayanır. Bu bəyanatlarda əks olunan nizamlanmanın elementləri sırasında Dağlıq Qarabağ ətrafındakı ərazilərin qaytarılması, eləcə də Dağlıq Qarabağın yekun statusunun əhalinin iradəsi yolu ilə müəyyən olunması var. O ki qaldı sənədlərə və təkliflərə, hansı ki, baxılıb və baxılır, onları Rusiya XİN başçısı Sergey Lavrov sadalayıb.

Qeyd etmək istərdik ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması mövzusu olduqca həssasdır. Bu mövzunu ictimai müzakirəyə çevirmək qeyri-məhsuldardır". Bu açıqlamadan bir daha görünür ki, danışıqlar masasında faktiki olaraq mərhələli həll müzakirə edilir. Elə rusiyalı politoloq Fyodor Lukyanov da proseslərin məhz bu istiqamətdə getdiyini bildirir:"Rus təklifləri varsa, onda bunlar ATƏT-in Minsk Qrupunun digər həmsədr ölkələri ilə razılaşdırılıb".

Lukyanov bildirib ki, tərəflərin mövqelərində ciddi ziddiyyətlər axtarmaq lazım deyil, çünki hər bir ölkə öz maraq və prioritetlərini rəhbər tutur:"Rus tərəfi prosesə müəyyən hərəkət daxil etmək, cəbhə xəttində risqləri azaltmaq istəyir". Digər rusiyalı politoloq Qriqori Trofimçuk qeyd edib ki, danışıqlar məhz mərhələli həll üzərində aparılır. Ermənistanın bunu təkzib etməsi isə absurddur:"Qarabağ konfliktinin həlli ilə bağlı heç bir danışıqlar yox idisə, o zaman aprel savaşından sonra Serj Sarkisyan və Nikol Paşinyan kiminlə görüşürdü? Belə danışıqların olmamasını söyləməklə Ermənistan hakimiyyəti yalan danışır. Şəxsən Paşinyan bunu hər uyğun situasiyada qeyd edir. Onların nə deməyindən asılı olmayaraq, danışıqlar olub və var. Sergey Lavrov sadəcə faktı dedi, burada heç bir sensasiya yoxdur. Paşinyan son iki ildə Qarabağla bağlı danışıqlar prosesini dəyərsizləşdirən bəzi bəyanatlar verib, bununla belə, iki fərqli formatda baş tutacaq ikitərəfli görüşlərdən heç kim imtina etməyə hazırlaşmır. Başqa sözlə, hazırkı erməni hökuməti danışıqlardan imtina etmək istəyir, amma hələlik bu gücü özündə hiss etmir". Rusiyalı hərbi ekspert Aleksey Xlopotov da erməni tərəfinin yalan danışdığını vurğulayır:"Ermənistan mediasındakı Bakı ilə danışıqlardan imtina etmək və Qarabağı Ermənistana daxil etmək çağırışları sadəcə isterikadır. İlk növbədə isə "Qarabağ klanı"na aid bir isterika, hələ də Qarabağı və Azərbaycanın işğal olunmuş digər ərazilərini geri qaytarmağın onlar üçün qaçılmaz kədərli son olduğunu dərk etməkdən yaranan isterika. Lavrovun dilə gətirdiyi bu həll təklifi yeni bir şey deyil. Rusiya ardıcıl olaraq Qarabağ probleminin sülh yolu ilə həllini müdafiə edir. Bu seçim həm Qarabağ, həm də Ermənistan üçün ən yaxşısıdır. Və əslində, onun qəbul edilməsi qaçılmazdır".

Ekspertin fikrincə, heç bir lobbi, nə qədər güclü olmasından asılı olmayaraq, bu prosesə təsir edə bilməz. Çünki bu əraziləri təslim etməmək mümkün deyil:"Azərbaycan həm iqtisadi, həm də hərbi cəhətdən güclü bir dövlətə çevrilib ki, əks təqdirdə o, torpaqlarını güc vasitəsilə geri alacaq. Üstəlik, siyasi vəziyyət Azərbaycanın xeyrinə inkişaf edir. Birincisi, Azərbaycan dünya miqyasında erməni işğalından təsirlənmiş bir ölkə kimi tanınır. İkincisi, bu gün qlobal böhran şəraitində, bütün dünya iqtisadiyyatının yenidən qurulması, "imperiyaların" devriləcəyi gözlənildiyi zaman Ermənistanın problemləri, nə qədər söyləsələr də, heç kim üçün əhəmiyyət kəsb edə bilməz". Onun fikrincə, təkcə dünyada deyil, Cənubi Qafqazdakı vəziyyətə həlledici təsir göstərmək imkanı olan Rusiyadakı vəziyyəti də nəzərə almaq lazımdır. Və Rusiyada çox güclü bir siyasi böhran gözlənilmədən yetişdi:"Ssenarilərdən biri hakimiyyətin bütün qollarının erkən dəyişdirilməsidir. Rusiyada bütün diqqət ölkə daxilində baş verənlərə yönələcək". Hərbi ekspert əlavə edib ki, sözügedən vaxta qədər Ermənistan münaqişəni sülh yolu ilə həll etmək üçün real addımlar atmasa, Azərbaycana antiterror əməliyyatı keçirməyə şans yaratmış olacaq. Xlopotov bildirib ki, belə olduğu halda əraziyə yeridilmiş erməni silahlı qüvvələri də avtomatik olaraq terrorçu statusunu alacaq: "Həm də yalnız hərbi deyil, eyni zamanda siyasi terrorçu olacaq. Bundan əlavə, dünya birliyi tərəfindən tanınmayan "DQR"də keçirilən prezident və parlament seçkilərinin nəticələri də qeyri-qanunidir. Düşünürəm ki, Ermənistanda bunu başa düşürlər. Buna görə də orada isteriya üçün kifayət qədər çox səbəb var".

Ermənistanın özündə də məsələyə eyni prizmadan yanaşırlar. Erməni ekspert Armi Saakyan bildirir ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda bütün mövqelərini itirib. Sergey Lavrovun "mərhələli həll" variantı haqda sözlərini şərh edən erməni ekspert Nikol Paşinyan hakimiyyətini ittiham edir: "Mövcud hakimiyyət içəridə düşmən axtarışına davam edir, əvəzində bütün mövqelərimiz kanalizasiyanın içinə düşdü. Hakimiyyət xarici siyasətlə məşğul olmaq əvəzinə ölkəni tərəfdarları və əleyhdarları arasında bölməyə davam edir. Qarabağ münaqişəsinin nizama salınmasında "mərhələli həll" planı Levon Ter-Petrosyanın dövründə qəbul olunmuşdu. Bu, ərazilərin qaytarılmasıdır. Son 1 ildə hakimiyyət bunu inadla inkar edir, amma reallıq bundan ibarət imiş". Bütün bunlar bir daha diplomatik müstəvidə ermənilərin məğlub durumda olduğunu aydın nümayiş etdirir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Bir çox halda deyirlər ki, tarix saxtakarlığı qəbul etmir, dəniz tullantıları sahilə atdığı kimi, o da saxtakarlığı, yalanları "qara qutular"da basdırır. Amma təəssüf ki, bəzən tarixin inkar etdiyi, qəbul etmədiyi yalanları bir az da bəzəyib onu yeni libasda təqdim etməyə cəhd göstərənlər var. Latviyanın ilk prezidenti Guntis Ulmanis kimi.**

# Latviyanın birinci prezidentinin böyük qəbahəti - latışların faciəsinin qondarma "erməni genosidi" ilə müqayisəsi nə deməkdir...

G.Ulmanis qondarma "erməni soyqırımı"nın "105-ci ildönümü" münasibətilə Ermənistana məktub göndərib. 1993-1999-cu illərdə Latviyaya rəhbərlik etmiş bu şəxs məktubunda ermənilərə əməlli-başlı yarınıb. Bildirib ki, 20-ci əsrin müharibələri bir çox Avropa xalqına, o cümlədən, latışlara və ermənilərə böyük əzablar gətirib. O, qondarma "erməni soyqırımı"nı qlobal münaqişələrin "ən böyük faciələrindən" biri hesab etdiyini qeyd etməklə yanaşı, ermənilərlə latışların eyni faciələrlə üzləşdiklərini də vurğulayıb. Tarixdə baş verməyən bir "soyqırım"ın günahkarlarını axtaran sabiq prezident "genosidi törədənləri" qınamaqdan da çəkinməyib. "...Osmanlı İmperiyasında erməni xalqına qarşı törədilən "kütləvi qırğınlara" və "məhrumiyyətlərə" müraciət etmək istəyirəm, bunu bu qlobal münaqişənin ən böyük faciələrindən biri hesab edirəm. Əminəm ki, dünya xalqları hər hansı bir millətə qarşı belə qəddarlığın təkrarlanmasının qarşısını almaq üçün atalarının səhvləri və əzablarından nəticə çıxardılar" - deyə sabiq prezident qeyd edib.

Ümumiyyətlə, latışlarla ermənilərin tarixində oxşar faciələrin olması haqqında heç bir tarixi sənəd, fakt, olay yoxdur. Bütövlükdə, ermənilər və latışlar soyqırıma məruz qalmayıblar, əksinə, ermənilər özləri başqa xalqlara, o cümlədən də türklərə qarşı tükürpədici soyqırım aktları törədiblər. Latviyaya gəlincə, latışların tarixində faciəli hadisə 1940-cı ildə Latviyanın dövlət müstəqilliyinin qəsb edilməsi və onun SSRİ tərkibinə daxil edilməsi faktı sayıla bilər. Bu fakt da ki, Azərbaycan da daxil olmaqla, keçmiş ittifaq respublikalarının taleyində yaşanıb.

Latviyanın sabiq prezidentinin latış xalqının faciəsi ilə qondarma "erməni genosidi"ni eyniləşdirməsi cəhdinin özü latış xalqının müstəqilliyi uğrunda mücadiləsinə bir ləkədir.

Latviyanın sabiq prezidentinin uydurma fikirlərinin şərhinə keçməmişdən əvvəl, bir-iki faktı diqqətinizə çatdırmaq istəyirik.

Əvvəla qeyd edək ki, digər Baltikyanı ölkə olan Litvadan fərqli olaraq, Latviya dövləti qondarma "erməni soyqırımı"nı tanımayıb. Dövlət müstəqilliyini 18 noyabr 1918-ci ildə elan edən Latviya 1940-1991-ci illərdə SSRİ-nin tərkibində olub. Azərbaycan Latviyanın müstəqilliyini 30 avqust 1991-ci ildə, Latviya isə Azərbaycanın müstəqilliyini 8 yanvar 1992-ci ildə tanıyıb. Ölkələr arasında diplomatik münasibətlər 11 yanvar 1994-cü ildə qurulub. Azərbaycan Respublikasının Latviyada səfirliyi 2005-ci ildə açılıb.

İki ölkə arasında yüksək səviyyədə əlaqələr mövcuddur. Azərbaycan Latviya ilə əməkdaşlığa həm də regional təşkilatlar, o cümlədən, Baltik-Qara Dəniz-Xəzər hövzəsi regionunda inteqrasiya proseslərinin intensivləşdirilməsi üçün Baltik Dənizi Dövlətlərinin Şurası çərçivəsində xüsusi əhəmiyyət verir.. Latviya Azərbaycanı Avropanın enerji resursları ilə təchizatında Qara dəniz-Xəzər regionunun əsas ölkəsi hesab edir. Latviya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll edilməsinin tərəfdarıdır.

Tarixçilər vurğulayırlar ki, Guntis Ulmanisin ermənilərə yazdığı məktub heç də Latviya dövlətinin və latış xalqının mövqeyini əks etdirmir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, Guntis Ulmanisin ermənipərəst mövqe sərgiləməsinin səbəbləri var. Professor Hacıyevin sözlərinə görə, tarixdə "erməni soyqırımı" baş vermədiyi kimi, latış xalqı da böyük məhrumiyyətlərə, faciələrə məruz qalmayıb. Bu gün Latviyada ruslara, rus dilinə qarşı kəskin nifrət bəsləndiyini deyən Q.Hacıyevin bildirdiyinə görə, bu ölkə hələ də SSRİ-nin vaxtilə Latviyanın dövlət müstəqilliyini qəsb etməsi faktı ilə barışa bilmir. "Mən indiyə qədər Latviyanın XX əsrdə soyqırımla üzləşdiyi haqda məlumatlara rast gəlməmişəm. Latviyada çox olmuşam, oradakı tarixçi-alimlərin bir çoxu ilə əlaqələrim var. Onların ruslara mənfi münasibətlərinin olduğunu bilirəm. Amma latış xalqının soyqırıma, məhrumiyyətlərə məruz qalması haqqında nə bir kitaba, nə də başqa materiala rast gəlmişəm. Latışlar son zamanlar bu "faciələr" haqqında yazırlar. Latış alimləri özləri yazırlar ki, 1940-cı ildə Molotovun göstərişi ilə SSRİ ordusunun Latviyaya daxil olması barədə məlumatlar yayılarkən həmin dövrdə Latviya Seymi çağırılır və burada könüllü şəkildə SSRİ-yə birləşmək haqqında qərar qəbul edilir. Bundan sonra milli münaqişə zəminində müəyyən toqquşmalar baş verir, ordu hissələri qırğın törədirlər. Azərbaycanda olduğu kimi, Latviyada da Sovet hökumətinin əleyhinə mübarizə aparmaq barədə qərar verilir. Bu münaqişə nəticəsində latviyadan xeyli sayda əhali SSRİ-nin müxtəlif ərazilərinə sürgün edilir. 1940-1941-ci illərdə əhali, ümumiyyətlə, çox ağır vəziyyətə salınır. 1941-ci ildə müharibəyə az qalmış artıq sakitliyə nail olunur".

Q.Hacıyev qeyd etdi ki, latışlarla ermənilərin oxşarlıqları var, amma Latviyanın sabiq prezidenti ermənilərlə latışların bənzərliyinə səhv yanaşma sərgiləyib, buna tarixi saxtalaşdırmaqla yozum verməyə cəhd edib. "1944-cü ildə Latviya ərazisini almanlar tutur və sonra Sovet ordusu yenidən bu əraziləri geri qaytarır. Müharibənin sonuna yaxın SSRİ hökuməti 50 min latışı respublikadan sürgün edir. Bu deportasiyalar ərəfəsində latışlara qarşı repressiyalar, güllələnmələr, digər cəza tədbirləri baş verir. Düzdür, bu bir xalqın tarixində böyük bir faciədir. Bilirsiniz ki, latış xalqının yaşadığı bu faciələrin bir neçə qatını Azərbaycan xalqı da, digər xalqlar da yaşayıb. Bu, SSRİ-nin bizə yaşatdığı faciələrdir. Bu, SSRİ-nin xislətinə, apardığı qanlı terror siyasətinə xas olan məsələdir. Amma bu gün sabiq prezidentin Latviyada baş vermiş hadisələri qondarma "erməni soyqırımı" ilə müqayisə etməsi, onlar arasında bənzərlik axtarması böyük tarixi və siyasi səhvdir. Latışların, azərbaycanlıların, özbəklərin, gürcülərin və digər xalqların imperiyanın qırmızı terrorundan əziyyət çəkdiyi məlumdur, amma ermənilər terrora məruz qalmayıb, onlar başqa xalqlara qarşı terror törədiblər.

Amma ermənilərlə latışlar arasında müəyyən bənzərliklər var. O da İkinci Dünya Müharibəsi illərində Latviya Respublikasından da ermənilər kimi Hitlerə satılanlar, faşistlərlə əməkdaşlıq edənlər çox idi. Hətta latışlar arasında SS-ə işləyənlər çox olub. İkinci Dünya Müharibəsi dövründə almanlar Latviyanı alan kimi latışlar arasından könüllü şəkildə SS dəstələrinə qoşulanlar oldu. Təxminən 10 min nəfərdən artıq latviyalı faşizmin vacib qanadlarından olan SS-çilərə qoşularaq Sovet ordusuna qarşı döyüşüblər. Hətta müharibədən sonra "Meşə qardaşlığı" adlı partizan hərəkatı da yaradıblar. Onlar SSRİ dövlətinə qarşı vuruşurdular. Məlumata görə, "Meşə qardaşlığı" adlı partizan dəstəsi 310 min nəfərə qədər Sovet vətəndaşını öldürüb. Bu baxımdan, ermənilərlə onlar arasında bənzərlik var. Görünür, ermənilərlə Latviyanın sabiq prezidentinin məqsədi eynidir. O, bu məktubunda, əslində, sətiraltı hər iki xalqın nümayəndələrinin vaxtilə faşizmə dəstək verdiyini və onların bu mənada həmrəy olduqlarını demək istəyib. Hərçənd, ermənilər bu gün də faşizmin alovlu təbliğatçısıdırlar" - deyə Q.Hacıyev vurğuladı.



***Qasım Hacıyev:** ”...onlar arasında bənzərlik axtarması böyük tarixi və siyasi səhvdir”*

***Faiq Ələkbərli:** ”...onun tamamilə başqa məqsədlərə xidmət etdiyini göstərir”*

AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərlinin sözlərinə görə, Latviyanın sabiq prezidentinin belə bir məktub yazaraq latışlarla ermənilərin "faciələri"ni eyniləşdirməsi, əslində, təsadüfi deyil: "Nə üçün təsadüfi deyil? Biz belə hallara ilk dəfədir rast gəlmirik. Bilirik ki, dünyada qondarma "erməni soyqırımı"nın təbliğatı yayğınlaşıb. Bu məsələdə isə Qərb dövlətləri, xüsusən də Rusiya həmişə maraqlı olub. Onlar bundan müsəlman dünyasının, xüsusən də Türkiyənin əleyhinə istifadə etmək üçün yararlanıblar. Latviyanın sabiq prezidentinin ermənilərə belə bir məktub yazmaqda məqsədi nə olub? Götürəndə latış xalqının nə elə bir böyük tarixi var, nə də onların soyqırıma məruz qalmaları haqqında faktlar mövcuddur. Biz ancaq onu bilirik ki, Latviya İkinci Dünya Müharibəsi ərəfəsində SSRİ tərəfindən işğala məruz qalıb. Latviya SSRİ tərəfindən işğal edilənə qədər artıq Azərbaycan, Ukrayna, Orta Asiya türk xalqları və başqa xalqlar Sovet imperiyasının ən qanlı terror aktlarını yaşamış, repressiyaya məruz qalmış, böyük insan təlefatı vermişdilər. Bilirik ki, ən qatı repressiyalar keçən əsrin 30-cu illərindən 1939-40-cı ilə qədər davam edib. Biz iddia etmirik ki, latış xalqı 1940-cı ildən 1991-ci ilə qədər 51 il ərzində hansısa problemlərlə üzləşməyib. Latviyanın keçmiş prezidentinin latış xalqının faciələrə məruz qalması ilə bağlı fikirlərinə anlayışla yanaşmaq olar. Amma sabiq dövlət başçısı tərəfindən latış xalqının hardasa yaşadığı faciənin qondarma "erməni soyqırımı" ilə eyniləşdirilməsi, ermənilərin "soyqırım"a məruz qaldığının iddia edilməsi onun tamamilə başqa məqsədlərə xidmət etdiyini göstərir. Əlbəttə, burada erməni diasporunun, lobbisinin təbliğat mexanizminin də rolu var. Onlar həmişə təbliğatlarını aparırlar. Şübhəsiz ki, tarixdə "erməni soyqırımı" deyilən bir genosid baş verməyib. Bilirik ki, Birinci Dünya Müharibəsi illərində ermənilərin döyüşə getməməsi bir yana, onlar müxtəlif quldur dəstələri yaradaraq Çar Rusiyasının və Qərb dövlətlərinin, Antantaya daxil olan dövlətlərin tərəfində Osmanlı ordusuna qarşı vuruşurdular. Onlar Osmanlıya arxadan zərbə vururdular. Osmanlı dövləti də 1915-ci ilin aprel ayının 24-də erməniləri Anadoludan Osmanlının başqa ərazilərinə, Suriyaya, Livana sürgün edib. Bu da məsələnin həqiqi üzüdür. Dinc əhalinin kütləvi qətlə yetirilməsinə gəlincə, o vaxt genosidə ən çox məruz qalan Şərqi Anadolu türkləri və Azərbaycan türkləri olub. Bu soyqırımları isə Osmanlı və Azərbaycan ərazisində erməni daşnakları törədirdilər" - deyə F.Ələkbərli qeyd etdi.

***İradə SARIYEVA***

# ABŞ və İran neft qiyməti ətrafında yeni müharibə oyunu qurur - Tramp İran hərbi gəmilərinə atəş açmaq əmri verdi, SEPAH komandiri "cavabı veriləcək" dedi...

**Bu gün koronavirus pandemiyasından ən çox əziyyət çəkən ölkələr sırasında yer alan ABŞ və İran yenidən hərb müstəvisində bir-birinə qarşı sərt, hədələyici mövqe sərgiləyir. Səslənən fikirlərdən belə bəlli olur ki, tərəflər istənilan an Fars körfəzində savaşa başlaya bilərlər. Amma məsələnin mahiyyəti barədə danışan ekspertlər burada həm də neftlə bağlı böyük bir oyunun getdiyini bildirir.**

Özü də bu oyun indi bütün tərəflər üçün olduqca vacib sayılır.

Bu barədə danışmazdan öncə qeyd edək ki, ABŞ prezidenti Donald Tramp bu günlərdə Fars körfəzi sularında Birləşmiş Ştatlar donanmasına aid gəmilərin İran İnqilab Keşikçiləri Korpusuna məxsus sürət katerləri tərəfindən sıxışdırılmasının ardınca İran hərbi gəmilərinə atəş açmaq əmri verib. Tramp bu haqda özünün "Tvitter" səhifəsində yazıb: "Mən ABŞ Hərbi Dəniz Qüvvələrinə Amerika gəmilərini dənizdə təqib edən İran hərbi gəmilərinə atəş açmaq və məhv etmək göstərişi vermişəm". Tehranın da cavabı özünü çox gözlətməyib. İran İslam İnqilabı Keşikçiləri Korpusunun komandiri, general-mayor Hüseyn Səlami ölkəsinə məxsus mülki və ya hərbi gəmilərə təhdid törədəcəyi halda, ABŞ-a aid hərbi gəmilərin vurulması əmrini verib. General-mayor bildirib ki, ölkəsinin ərazi bütövlüyünə və təhlükəsizliyinə qarşı təhdidlərə qətiyyətli və sərt şəkildə cavab veriləcək:"Biz də hərbi dəniz qüvvələrimizə, mülki və ya hərbi gəmilərimizə təhdid törədəcəyi halda, ABŞ-a aid hərbi gəmilərin vurulması əmrini vermişik. Fars Körfəzi bizim üçün strateji əhəmiyyətlidir". İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif də Donald Trampın İran gəmilərini batırmaq əmrinə maraqlı münasibət sərgiləyib:"ABŞ hərbçiləri arasında 5 000-dən artıq COVID-19-a yoluxma halı var. Donald Tramp Səddam terrorçularının alqışladığı hədələri yaymaqdansa, onların ehtiyacları ilə məşğul olsa, daha yaxşı olardı. Bundan başqa, öz Fars körfəzimizdə dənizçilərimizi təhrik edən ABŞ qüvvələrinin evlərinin 7 000 milliyində işi yoxdur". Məsələ ilə bağlı İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Abbas Musəvi qeyd edib ki, ABŞ-ın Fars körfəzindəki hərbi gəmiləri beynəlxalq qanunları pozaraq təhrikedici hərəkətlərə yol verir. Bu gəmilər İranın təhlükəsizliyi üçün təhrikedici hərəkətlərə yol verməyə davam etsələr, ağır cavab alacaqlar.



Artıq Fars körfəzində ABŞ-ın əlavə hərbi texnika cəmləşdirməsinə dair məlumatlar da var. Lakin ekspertlər iki ölkə arasında bu hərbi gərginliyin, əslində neftin qiymətlərini yüksəltmək üçün daha bir gediş olmasına dair fikirlər səsləndirir. Məlumdur ki, hər dəfə ABŞ-İran müharibəsi gündəmə gələndə neft qiymətləri sıçrayır. İndiki halda isə bu, ABŞ və İran üçün vacib əhəmiyyət kəsb edir. Rusiyanın "Valday" diskussiya klubunun eksperti Fərhad İbrahimov da məsələyə elə bu prizmadan yanaşır: "Burada bir neçə nüans var. Birincisi, hazırda Tramp və onun administrasiyası sürətlə yayılan və Amerikanın tam inkişaf etməsinə imkan verməyən koronavirus səbəbindən daxili siyasi planda kifayət qədər mürəkkəb bir vəziyyətdədir. İndi Trampın mövqeyi istənilən səviyyədə deyil və xarici siyasət sahəsində ona müəyyən uğurlar qazanmaq lazımdır. Bu mənada İran rahat hədəfdir və Tramp Yaxın Şərqdə mövcud olan bütün problemlərə görə yenə də ona ilişir və onu ittiham edir". Onun fikrincə, İranın bu günlərdə Amerikanın humanitar yardımını nümayişkaranə şəkildə qəbul etməməsi də ABŞ prezidentini qıcıqlandırıb. Ekspert hesab edir ki, bununla yanaşı daha bir səbəb də var: "Əlbəttə ki, burada neftin qiymətinin düşməsi ilə bağlı iqtisadi bir aspekt də var. Belə bir ehtimal var ki, Tehran və Vaşinqton arasında bu cür kəskinləşmə neftin qiymətinin yenə artmasına imkan verəcək. Bu ilin yanvarında olduğu kimi. Həmin vaxt prezident Tramp İslam İnqilabı Keşikçiləri Korpusunun generalı Qasım Süleymaninin öldürülməsi barədə əmr vermişdi. Güman ki, Tramp administrasiyası indi öz reytinqini artırmağa, həmçinin neftin qiymətinin yenidən qalxmasına çalışır".

Digər rus ekspert İvan Danilov hesab edir ki, aşağı qiymət üzündən ABŞ və Kanadanın neft hasilatçıları kifayət qədər ağır durumdadır və bu da Trampı ciddi narahat edir: "Neftin mənfi qiymətləri ilə bağlı hazırkı misli görünməmiş vəziyyət neft bazarının gələcəyi barədə heç nə deməsə də, OPEC+ neft alyansına üzv ölkələrlə əməkdaşlıq etmək istəməyən Amerika şist şirkətlərinin ambisiyalarını necə tənzimləmək barədə çox şey deyir. Neft müharibəsində kimin və necə qalib gəlməsi məsələsinə qayıtsaq, Kanadanın "Financial Post" nəşrinin Kanada Kral Bankının və nüfuzlu "Rystad Energy" konsaltinq şirkətinin dəyərləndirmələri əsasında verdiyi şərhi qeyd etmək olar: "Kim qalib gəlir? Şimali Amerikada məcburən ixtisar edilmiş neft hasilatı OPEC ölkələrində olduğundan beş dəfə artıq ola bilər... Şimali Amerikanın neft hasilatçıları əzilirlər, çünki gözlənilir ki, neft seli qiymətləri uzun müddət aşağı səviyyədə saxlayacaq. "RBC Capital Markets" ABŞ-da şist neft hasilatının sutkada 1,5 milyon barrel azalacağını gözləyir... OPEC-in üzvləri arasında isə yalnız İraq sutkada 300 min barrel və Venesuela sutkada 275 min barrel ixtisar etmək məcburiyyətində qalacaq. İndiyə qədər ruslar və səudiyyəlilər bazar payı üçün müharibəni qazanırlar. Lakin bu onlara baha başa gəlir, çünki OPEC ölkələrinin əksəriyyəti yüksək neft qiymətindən böyük dərəcədə asılıdır... "RBC" və "Rystad" tərəfindən alınmış məlumatlara görə, ümumiyyətlə, Şimali Amerikada hasilat bu il ərzində sutkada 2,64 milyon barrel azala bilər. OPEC-in ixtisar həcmləri isə sutkada 575 min barrel təşkil edir".

Donald Tramp şist şirkətlərinə kömək etməyi vəd edir, lakin o artıq bunu əvvəllər də vəd edib və ABŞ Konqresindəki siyasi rəqibləri ona bunu etməyə imkan verməyiblər. Onlardan bəziləri hətta açıq şəkildə neftçilərin kütləvi işdən çıxarılmasına və neftin qiymətinin çökməsinə sevinir.

**Yaxın aylarda neft bazarının qiymət konyunkturasını proqnozlaşdırmaq mümkün deyil, amma epidemiya onsuz da bitəcək ki, bu da tələbatın bərpasına və qiymətlərin artmasına səbəb olacaq. Lakin Qərb mənbələrinin də haqlı olaraq qeyd etdiyi kimi, ABŞ və Kanadanın neft hasilatçılarının kifayət qədər əhəmiyyətli hissəsi o vaxta sadəcə "sağ" çıxmayacaq". Amma İranla müharibə imitasiyası vəziyyəti tam dəyişdirə bilər və elə həm Vaşinqtona, həm də Tehrana bu indi sərfəli görünür.**

***Nahid SALAYEV***

# Dövlətdən özəl sektora mühüm dəstək - İqtisadiyyat Nazirliyinin təkliflər paketində nələr var...

**Pandemiyanın hələ də dünya miqyasında tüğyan etdiyi bir vaxtda dünya dövlətləri qarşısında duran başlıca məsələlərdən biri də iqtisadiyyatda yaranan təhdidləri neytallaşdırmaqdır. Bu xüsusda dövlətlər fərqli addımlar atır. Azərbaycanda da qeyd olunan xüsusda mühüm işlər görülür.**

Faktdır ki, bu gün, xüsusən əhalinin sosial cəhətdən həssas təbəqəsinə dövlət tərəfindən hərtərəfli yardım göstərilir. Eləcə də bu gün özəl sektorun ayaqda qalması üçün dövlət müxtəlif yardımlar və vergi güzəştlərinə getməklə böyük bir yükü öz çiyinləri üzərinə götürüb. Xatırlatmaq yerinə düşərdi ki, Prezident İlham Əliyevin "Koronavirus (COVID-19) pandemiyasının ölkə iqtisadiyyatına və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı bu fonda vaxtında atılmış effektiv addım sayılır. Məhz bunlar həm zərər çəkmiş sahələrdə iş yerlərinin sayının azaldılmasının qarşısının alınması məqsədilə əmək müqaviləsi əsasında çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi mexanizmi üzrə maliyyə yardımını, həm də vergi ödəyicilərinə, fərdi sahibkarlara yardımı özündə ehtiva edir. Bütün bu tədbirlərin həyata keçirilməsində hökumətin operativliyi çox önəmlidir. Bu vaxta qədər qərarların tez qəbul olunması baxımından sahibkarlara və vergi ödəyicilərinə yardım göstərilməsi yönündə hökumətin atdığı addımlar, ekspertlərin fikrincə, təqdirəlayiqdir.

Xatırladaq ki, dövlət dəstəyi çərçivəsində fərdi sahibkarların muzdlu işçilərinə ödədikləri əməkhaqqının bir hissəsinin dövlətin ayırdığı vəsait hesabına ödənilməsi proqramından bu günə qədər 200 mindən çox fərdi sahibkar, muzdlu işçi yararlanıb. Digər tərəfdən məlumdur ki, pandemiyanın mənfi təsirinə məruz qalmış sahələrdə çalışan bir sıra sahibkarlıq subyektlərinin sosial sığorta yükünün azaldılması da diqqət mərkəzindədir. Xatırladaq ki, İqtisadiyyat Nazirliyi tərəfindən Vergi Məcəlləsi və "Sosial sığorta haqqında" qanuna bu xüsusda zəruri dəyişikliklərlə bağlı təkliflər hazırlanıb. Təkliflər paketində bir sıra vergi güzəştləri və tətillər nəzərdə tutulur. Təkliflər paketində koronavirus pandemiyasının bilavasitə təsir etdiyi fəaliyyət istiqamətləri üzrə vergi ödəyicilərinə 2020-ci il yanvarın 1-dən etibarən bir il müddətinə əmlak və torpaq vergiləri üzrə tam məbləğdə azadolma təklif edilir. Koronavirus pandemiyasının təsirinə məruz qalan fəaliyyət sahələrinin əmlak və torpaq vergisindən azad olunması ilə yanaşı, həmin sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə, seçdikləri vergitutuma metodundan asılı olaraq, bu il yanvarın 1-dən etibarən bir il müddətinə bir sıra vergi güzəştlərinin verilməsi planlaşdırılır. Pandemiyanın mənfi təsir etdiyi iqtisadi fəaliyyət sahələri üzrə bir sıra digər güzəştlər də verilə bilər. Bu güzəştlər vergi ödəyicilərinin vergi və inzibati yükünün azaldılmasını nəzərdə tutur. Koronavirus pandemiyasının təsirinə məruz qalıbqalmamasından asılı olmayaraq, bütün mikro sahibkarlara vergi güzəştlərinin verilməsi gözlənilir. Bundan başqa, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə yeni dəstək mexanizmləri də hazırlanır. Bunu İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi siyasəti Baş İdarəsinin rəisi Samirə Musayeva da xüsusi olaraq vurğulayır. Onun sözlərinə görə, Nazirlər Kabineti tərəfindən qəbul edilmiş "Tədbirlər Planı" çərçivəsində ölkədə pandemiyadan zərər çəkmiş sahibkarlıq subyektlərinə dəstəyin göstərilməsi ilə bağlı addımlar atılır. Bu məqsədlə Vergi Məcəlləsində və bir sıra qanunvericilik aktlarında dəyişikliklərlə bağlı təkliflər hazırlanıb:"Dəyişikliklər sahibkarlıq subyektləri, biznes icmaları və aidiyyəti dövlət orqanlarının nümayəndələri ilə geniş müzakirə edilib, biznesin tələbləri və istəkləri nəzərə alınıb və müvafiq qanun layihəsi Milli Məclisə təqdim olunub. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun bütövlükdə pandemiyadan zərər çəkən bir sıra fəaliyyət sahələrinə genişhəcmli təşviqləri ehtiva edir. Qanun layihəsində pandemiyadan bilavasitə zərər çəkən sahələr üzrə əmlak və torpaq vergiləri üzrə 2020-ci il üçün vergidən tam azadolma, mənfəət vergisi üzrə isə 75 faizlik güzəşt nəzərdə tutulur". Ekspertlər bildirir ki, pandemiya dövrünə görə tətbiq edilən vergi güzəştləri sahibkarların və bütövlükdə iqtisadiyyatın canlanmasında geniş perspektivlər vəd edir. Məsələn, iqtisadçı Natiq Cəfərli qeyd edir ki, Prezident İlham Əliyev pandemiya ilə əlaqədar bəzi vergi mükəlləfiyyətlərində vaxtında mühüm endirimlər edib:"Vergi güzəştləri, xüsusən kiçik və orta sahibkarlara, bəzi biznes sahələrinə şamil edildi ki, bu sahələrin bir çoxu bu gün pandemiya ilə əlaqədar fəaliyyətini dayandırıb. Vergilərlə bağlı güzəştlərin olması gözlənilirdi. Çünki pandemiya səbəbindən bu sahələrə ciddi ziyan dəyib və onların yenidən öz fəaliyyətlərini bərpa etməsi üçün dövlət dəstəyi şərt idi. Biz tətbiq edilən vergi endirimləri ilə bu dəstəyi görürük". Ekspert qeyd edib ki, bu gün hələ də bir çox sahələrin dövlət dəstəyinə ehtiyacı var:"Dövlət dəstəyi hazırkı vəziyyətdə bu sahələrin postpandemiya dövrü üçün həyati əhəmiyyət daşıyır. Bu mənada, güzəşt edilməsini müsbət hal hesab edirəm. Hətta bəzi vergilər yanvar ayına qədər sıfırlanıb, bəzi vergilərdə isə endirimlər edilib. Bununla belə düşünürəm ki, vergiləri daha çox endirmək olar, çünki pandemiyanın nə vaxt bitəcəyi ilə bağlı konkret vaxt demək çətindir. Karantin dövründən sonrakı bir neçə ay müddətində iqtisadiyyatın inkişaf dinamikasının artırılması müddəti başlayacaq".



Bütün bunlar özəl sektorun inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

***Ramil QULİYEV***

# Karantin bitən kimi şəhid ailələri və müharibə əlillərinin üzü ikiqat güləcək...

**"Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bu il həssas qruplarla bağlı nəzərdə tutulmuş bütün sosial proqramlar, eləcə də sosial müdafiə və aktiv məşğulluq proqramlarının genişləndirilməsi ilə bağlı planlar tam icra olunacaq". Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev nazirlikdə videobağlantı formasında keçirilmiş kollegiya iclasında deyib.**

*"...həssas qrupa aid olan şəhid ailələrinə və müharibə əlillərinə mənzil veriləcək"*

O qeyd edib ki, xüsusi karantin rejimi bitdikdən sonra şəhid ailələrinə və müharibə əlillərinə yeni alınmış mənzillərin verilməsinə başlanacaq, bu il onlara 1500 mənzil veriləcək, həmçinin, müharibə əlillərinə avtomobillərin verilməsi işləri də davam edəcək.

Məlumdur ki, dövlət şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin sosial rifahının yaxşılaşdırılmasına xüsusi önəm verir. Bu kateqoriyaya aid olan şəxslərin pensiya və müavinətləri mütəmadi artırılır, minik avtomobili ilə təmin edilir, mənzillə təminatları unudulmur.

Analoji addım demək olar ki, hər il həyata keçirilir. Sadəcə, dünyanı bürüyən koronavirus pandemiyası ilə əlaqədar olaraq bu il şəhid ailələri və müharibə əlillərinə veriləcək evlər karantin rejimi bitəndən sona mümkün olacaq.

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, şəhid ailələrinə, müharibə əlillərinə gündəlik diqqət və qayğı dövlətin ali məqsədidir: "Ölkəmizdə ərazi bütövlüyümüz uğrunda öz canından keçmiş şəhidlərin ailələrinə, həmçinin, müharibə əlillərinə böyük diqqət və qayğı göstərilir. Prezident İlham Əliyev sosial cəhətdən qayğıya ehtiyacı olanların mənzil-məişət şəraitinin və onlarının rifahının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayır. Bir sözlə, müharibə veteranlarına və şəhid ailələrinə qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Təkcə bir faktı qeyd edək ki, şəhid ailələrinə, müharibə əlillərinə fərdi ev, mənzil və avtomobillər hədiyyə edilir. Dövlət başçımız bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirməkdə davam edir. Əminəm ki, müstəqil Azərbaycan yaşadıqca, bu addımlar davam edəcək".

***Fatimə Hacıbəyli:** "Şəhid ailələrinə, müharibə əlillərinə gündəlik diqqət və qayğı dövlətin ali məqsədidir"*



**Həmsöhbətimiz onu da vurğuladı ki, şəhid ailələri, müharibə əlillərinə və digər kateqoriyaya aid şəxslərə dövlət hər zaman dəstək göstərir: "Məlumdur ki, hazırda ölkəmiz çətin sınaqla üzbəüz qalıb. Koronavirus bəlası ölkəmizdə tam olaraq yox olandan sonra həssas qrupa aid olan şəhid ailələrinə və müharibə əlillərinə mənzil veriləcək".**

*Günel CƏLİLOVA*

# Sahibkarlara dəstək layihələri bitmir - sadələşdirilmiş vergilər 50 faiz azaldılır

**Koronavirus pandemiyasının təsirinə məruz qalıb-qalmamasından asılı olmayaraq, bütün mikrosahibkarlar üçün də güzəştlərin verilməsi nəzərdə tutulur. Bu barədə məsələ İqtisadiyyat Nazirliyinin hazırladığı Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və tətilləri mexanizmində bildirilir.**

*"Fərdi sahibkarların çox hissəsinin sosial sığorta yükündən 1 il müddətinə azad edilməsi nəzərdə tutulub"*

Mikrosahibkarlara sadələşdirilmiş vergi üzrə 50 faiz güzəştin verilməsi (verginin dərəcəsi 2 faizdən 1 faizə salınır), 2020-ci ilin birinci və ikinci rübü üzrə sadələşdirilmiş vergi hesabatının və mənfəət (gəlir) və əmlak vergiləri üzrə hesabatların verilməsi və hesablanmış verginin büdcəyə ödənilməsinə cari ilin sentyabr ayının 1-dək vergi tətilinin verilməsi nəzərdə tutulur.

Həmçinin, Nazirlər Kabinetinin qərarı ilə müvafiq fəaliyyət növlərinin tam və ya qismən məhdudlaşdırıldığı müddət sabit qəbz almaqla fərdi qaydada məşğul olan vergi ödəyiciləri tərəfindən əldə etdikləri qəbzlərin qüvvədəolma müddətinə daxil edilməməsi və ödənilmiş vergilərin növbəti dövrlərin ödəmələrinə aid edilməsi nəzərdə tutulur.

Göründüyü kimi, Azərbaycan hökuməti tərəfindən təsdiq edilən iqtisadi paketdə bütün tərəflərin maraqları nəzərə alınıb. Bu baxımdan vergi güzəştlərinin təklif olunması sahibkarlara çətinliklərə dözməyə və iqtisadi aktivliyi daha tez bərpa etməyə kömək edəcək.

Maraqlıdır, bəs ekspertlər sadələşdirilmiş vergi ilə bağlı güzəştləri necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin fikrincə, bunun çox mühüm əhəmiyyəti var: "Mikrosahibkarlıq subyektləri üçün nəzərdə tutulan bu güzəşt onların xeyrinə olacaq. Bu güzəştlər imkan verəcək ki, sahibkarlar yaranan çətinliklərin öhdəsindən gəlsinlər. Məsələ ondadır ki, pandemiyadan tamamilə zərər çəkmiş mikrosahibkarlıq subyektlərinin 2019-cu ildə ödədikləri vergini 100 faiz dövlət əlavə olaraq onlara geri qaytarıb. Bu, minimum 250, maksimum isə 5 min manat oldu. Bundan başqa, sözügedən sahibkarlıq subyekti sadələşdirilmiş vergi ödəyicisidirsə, 2020-ci ildə 1 il müddətinə sadələşdirilmiş vergini 2 yox, 1 faiz ödəyəcək. Mənfəət vergisi ödəyən mikrosahibkarların isə cari vergini ödəmək yükü aradan qalxır.

***Rəsul Cahangirli:** "Bu güzəştlər imkan verəcək ki, sahibkarlar yaranan çətinliklərin öhdəsindən gəlsinlər"*



**Yəni onlar bir il müddətinə vergi ödəməyəcəklər. Digər tərəfdən, hansısa sahibkar pandemiya ilə bağlı yardım edib və ya xərc çəkibsə, o, xərclərin hamısını gəlirdən limitsiz olaraq çıxa biləcək. Bundan əlavə, fərdi sahibkarların çox hissəsinin sosial sığorta yükündən 1 il müddətinə azad edilməsi nəzərdə tutulub. Bütün bunlar sahibkarlar üçün mühüm güzəştdir".**

*Vidadi ORDAHALLI*

**Koronavirus pandemiyası yayılandan sonra virusa qarşı qabaqlayıcı tədbirlər görən dövlətlərdən biri də Azərbaycan oldu. Məhz bunun nəticəsində ölkədə virusa yoluxanların sayı az oldu. Doğrudur, bir sıra ölkələrdəki kimi ən sərt qaydalar tətbiq olunmadı, amma bununla bərabər atılan addımlar müsbət nəticə verir.**

# 190 manat sosial yardımı alanlar Zabrat, Maştağa və başqa yerlərdə kütləvi karantin pozuntusuna gedir...

## *Məhərrəm Zülfüqarlı: "Yardım alarkən məsafəni gözləmək və tələb olunan zəruri qaydalara əməl etmək lazımdır"*



Karantin qaydalarını pozanlarla bağlı cəza tədbirləri də ya qısamüddətli həbs, ya da pul cəriməsi ilə məhdudlaşır.

Ancaq müşahidələr göstərir ki, son günlər bir sıra hallarda karantin qaydalarının kütləvi pozulması faktları baş verməkdədir. Məsələ ondadır ki, 190 manat birdəfəlik yardımın alınması ilə bağlı son günlər Bakıətrafı bəzi yerlərdə vətəndaşlar karantin qaydalarının kütləvi pozulmasına yol verirlər. Belə ki, Sabunçu rayonunun Zabrat, Maştağa qəsəbələrində yerləşən "Azərpoçt"un filiallarının qarşısında insanlar kütləvi halda sıxlıq yaradırlar. Necə gəldi poçt binasının qarşısına toplaşırlar. Onların bir çoxu nəinki rezin əlcəklərdən, heç adi tibbi maskalardan belə istifadə etmir. Bu azmış kimi, hətta Nazirlər Kabinetinin müvafiq qərarında nəzərdə tutulmuş 2 metrlik məsafə belə gözlənilmir. Bu da virusa yoluxma riskini artırır. Neçə gündür adıçəkilən qəsəbələrdə yerləşən "Azərpoçt"un filiallarının qarşısında bu cür xoşagəlməz mənzərə yaşanır. Bütün dünyada tüğyan edən koronavirusa vətəndaşların belə biganə münasibət göstərməsi təəssüf doğurur.

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının fikrincə, vətəndaşlar qaydalara riayət etməməklə həm özlərinin, həm də digərlərinin həyatını təhlükəyə atırlar: "Bu gün Azərbaycan dövləti ona görə vətəndaşlara birdəfəlik sosial yardım edir ki, işsiz əhali evdə otursun. Günəmuzd gedib pul qazana bilmirlər. Vətəndaşlar 190 manat alarkən öz sağlamlıqlarını qorumurlarsa və ən zəruri qaydalara əməl etmirlərsə, deməli, onlar verilən yardımın mahiyyətini də başa düşmürlər. Azərbaycan dövləti məşğulluq mərkəzlərində işsiz kimi qeydiyyatdan keçməyənlərə də yardım edir. Ona görə də insanlar bunun məsuliyyətini, dövlətin humanist addımını anlamalıdırlar. Dövlət bu yardımı ona görə verir ki, insanlar evdə otursunlar və özlərini qorusunlar. 190 manat alarkən qaydalara əməl etmirlərsə, bir-birinin yanında ara məsafəni gözləmədən dururlarsa, sabah virusa yoluxsalar, o yardım onlara kömək edə bilməyəcək.

> *"Dövlət vətəndaşlara kömək edirsə, onlar da dövlətə kömək etməlidirlər ki, virusa yoluxma geniş yayılmasın"*

**Çünki bu zaman pandemiyanın yayılması kütləvi hal ala bilər. Ona görə də diqqətli və təmkinli olmaq lazımdır. Yardım alarkən məsafəni gözləmək və tələb olunan zəruri qaydalara əməl etmək lazımdır. Dövlət vətəndaşlara kömək edirsə, onlar da dövlətə kömək etməlidirlər ki, virusa yoluxma geniş yayılmasın".**

***Vidadi ORDAHALLI***

---

**Bəzi sosial şəbəkə istifadəçiləri tərəfindən paytaxtın Binəqədi rayonu ərazisində qəsdən adamöldürmə cinayətinin iştirakçısı olmuş şəxslərin guya cinayət məsuliyyətindən azad olunmalarına dair əsassız məlumatlar yayılıb. İctimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən həmin məlumatlar həqiqəti əks etdirmədiyindən, tərəfimizdən qəti şəkildə təkzib olunur.**

# Bakı Şəhər Prokurorluğu Binəqədidəki qanlı cinayət barədə əsassız məlumatları təkzib etdi



Belə ki, 2019-cu il mayın 9-da, saat 23 radələrində Binəqədi rayonu ərazisində 1995-ci il təvəllüdlü Həsən Tağıyevin şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı 2008, 2012, 2013, 2014-cü illərdə Cinayət Məcəlləsinin 315.1, 315.2, 221.1-ci maddələri ilə məhkum olunmuş 1988-ci il təvəllüdlü Emin Səfərovu çoxsaylı bıçaq xəsarətləri ilə qəsdən öldürməsi faktı ilə bağlı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adamöldürmə) maddəsi ilə cinayət işi başlanaraq istintaqı aparılıb.

Həsən Tağıyev 10 may 2019-cu il tarixdə iş üzrə şübhəli şəxs qismində tutulmaqla ona həmin maddə ilə ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

İstintaq zamanı cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsinə əsaslı şübhələr müəyyən edildiyindən, cinayətin digər iştirakçısı, 1984-cü il təvəllüdlü Zaur Yusifov mayın 12-də şübhəli şəxs qismində tutulub və Cinayət Məcəlləsinin 120.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adamöldürmə) və 120.2.4-cü (xüsusi amansızlıqla adamöldürmə) maddələri ilə ittiham elan olunmaqla məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.

İstintaqın gedişində Həsən Tağıyevə elan olunmuş ittiham dəyişdirilərək ona Cinayət Məcəlləsinin 120.2.1, 120.2.4 və 228.4-cü (qanunsuz olaraq soyuq silahı əldə etmə, satma və ya gəzdirmə) maddələri ilə yenidən ittiham elan edilib.

Aparılmış istintaq zamanı Emin Səfərovun qəsdən öldürülməsində Həsən Tağıyev və Zaur Yusifovdan başqa hər hansı şəxs və ya şəxslərin iştirakı müəyyən edilməyib.

Belə ki, istintaq zamanı toplanmış sübutlar əsasında müəyyən edilib ki, 1958-ci il təvəllüdlü Əli Yusifovun oğlu Zaur və Həsən Tağıyevlə mərhum Emin Səfərov arasında olan münasibətlərdən məlumatı olmuş və tərəflər arasında barışıq olması üçün dəfələrlə səy göstərib. Mayın 9-da, saat 23:20 radələrində yaşadığı evə gedərkən Emin Səfərovu Binəqədi rayonu İsrafil Həşimov küçəsində yerləşən 8 saylı binanın yaxınlığında "BMW X5" markalı avtomobilin sükanı arxasında görmüş və avtomobilə əyləşərək ondan aralarında olan ədavətə son qoyulmasını xahiş edib. Bu zaman Zaur və Həsən avtomobilə yaxınlaşaraq Emin Səfərova bıçaq zərbələri vurub. O, münaqişənin qarşısını almaq istəyərkən özü də sağlamlığa yüngül zərər vurmaya aid bıçaq xəsarəti almış və yaşadığı evə gedərək daha sonra tibbi yardım almaq üçün oğlu Zamin Yusifov tərəfindən xəstəxanaya aparılıb.

İstintaq zamanı, həmçinin, Zaur Yusifovun qardaşı 1988-ci il təvəllüdlü Zamin Yusifovun cinayət hadisəsində hər hansı iştirakı müəyyən edilməyib. Belə ki, mobil telefon danışıqları barədə məlumatlar əsasında hadisə baş verən vaxtı sonuncunun başqa ərazidə olması müəyyən edilib. Eyni zamanda, materialların məhkəmə (lifli) ekspertizasının rəyinə əsasən, Emin Səfərova məxsus geyimlərdə Zamin Yusifovun geyimlərinə məxsus lif mikrohissəcikləri aşkar olunmayıb.

Əli Yusifovun nəvəsi yetkinlik yaşına çatmayan Vüqar Ramazanovun istifadə etdiyi mobil telefon nömrəsinin anten dairəsi ilə bağlı məlumatlara əsasən, hadisə vaxtı və sonra onun cinayət hadisəsinin baş verdiyi ərazidə olmaması və cinayət hadisəsində hər hansı bir iştirakı müəyyən edilməyib.

Cinayət işi başlandıqdan qısa müddət sonra Emin Səfərovun anası Məlahət Səfərova iş üzrə zərərçəkmiş şəxsin hüquqi varisi tanınmaqla istintaq zamanı prosessual hüquqlarının həyata keçirilməsi təmin edilmiş, istintaqın gedişində zərərçəkmiş şəxsin hüquqi varisinin, eləcə də onun müdafiəçisinin qaldırdıqları bütün vəsatətlərə baxılmış, göstərdikləri hər bir xüsusat yoxlanılmaqla onlara ətraflı şəkildə məlumat verilib.

**İş üzrə istintaq tamamlanaraq 16 mart 2020-ci ildə baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.**

# Daşınmaz əmlaka vergi güzəşti - qiymətlər enəcəkmi...

**Koronavirus pandemiyasının təsir etdiyi sahələrdə fəaliyyət göstərən vergi ödəyiciləri üçün bəzi güzəştlər nəzərdə tutulur. Bu barədə İqtisadiyyat Nazirliyinin hazırladığı "Pandemiyadan zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə (o cümlədən, kiçik və orta sahibkarlığa) vergi güzəştləri və tətilləri mexanizmi"ndə deyilir.**

## *Vüqar Bayramov: "...həmin vergidən təklif olunan müddətdə sahibkarlar azad olunacaqlar"*

## *Ramil Qasımzadə: "Daşınmaz əmlak bazarında qiymətlərin düşmə ehtimalı var"*

Qeyd olunur ki, koronavirus pandemiyasının mənfi təsir etdiyi iqtisadi fəaliyyət sahələri üzrə bir sıra digər güzəştlər də verilə bilər.

Güzəşt ediləcək sahələrdən biri də daşınmaz əmlak sektorudur. Bildirilir ki, fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcəsi 14 faizdən 7 faizə endiriləcək.

Ekspertlər hesab edirlər ki, daşınmaz əmlak sahəsinə ediləcək güzəştlər mənzillərin satışına və icarə qiymətinə də təsir edəcək.

Millət vəkili Vüqar Bayramov qeyd etdi ki, vergi sahəsində təklif olunan güzəştlər təkcə fərdi sahibkarları deyil, eyni zamanda, daha iri, orta və kiçik sahibkarları da əhatə edir: "Güzəştlərdən biri də əmlak və torpaq vergisi ilə bağlıdır. Həmin vergidən təklif olunan müddətdə sahibkarlar azad olunacaq. Bu da onunla bağlıdır ki, pandemiya dövründə sahibkar gəlir əldə edə bilmir. Ancaq onun əmlakı var. Sahibkar əmlak vergisi ödəyirsə, bu onun üçün əlavə bir xərcdir. Dövlətin güzəştlər tətbiq etməkdə də məqsədi ondan ibarətdir ki, sahibkarları həmin xərcdən azad etsin. Eyni zamanda, postpandemiya dövründə sahibkarların yenə də xərclərinin azaldılmasına nail olmaq məqsədi var ki, onlar qısa müddətdə fəaliyyətlərini bərpa edə bilsinlər. Eləcə də evini icarəyə verən, müəyyən ofis icarəyə götürən vətəndaşlarımız üçün də güzəştlər nəzərdə tutulub. Bildiyiniz kimi, həmin vətəndaşlarımız gəlir mənbəyindən 14 faiz vergi ödəyirlər. Bu vergi dərəcəsi də 14 faizdən 7 faizə endiriləcək. Bu da icarə müqavilələrinin rəsmiləşdirilməsi baxımından vacibdir. Bundan əlavə, icarədən gəlir əldə edən vətəndaşlarımızın xərclərinin azaldılmasına xidmət edir. Mikrosahibkarlar sadələşdirilmiş vergi subyektləri ödəyicisidirlərsə, onlar üçün vergi 2 faizdən 1 faizə endiriləcək. Bu da mikrosahibkarların xərclərinin azaldılması baxımından vacibdir".



Əmlak üzrə ekspert Ramil Qasımzadə bildirdi ki, koronavirusla bağlı Azərbaycanda tətbiq olunan karantin rejimi, digər sahələrə olduğu kimi, daşınmaz əmlak bazarına da təsir göstərib. Pandemiyadan əlavə, paytaxt və bölgələrin əmlak bazarına təsir göstərən amillərdən biri də neftin qiyməti ilə bağlıdır. Təbii ki, ölkəyə gələn vəsaitin azalması, həmçinin, daşınmaz əmlaka olan marağı da azalda bilər. Buna görə də qiymətlərin düşmə ehtimalı var: "Neftin qiyməti aşağı səviyyədə qalsa, daşınmaz əmlak bazarında 20-25 faiz enmələr müşahidə olunacaq. Bundan əlavə, karantin müddəti may ayında başa çatsa və neftin qiymətində artım olarsa, büdcədə nəzərdə tutulan qiymətə qədər gələrsə, ilin sonuna kimi qiymətlərdə 5-10 faizə qədər artım baş verə bilər. Digər ehtimal isə neftin qiyməti aşağı olsa, tikintiyə dövlət dəstəyi olarsa, bazarda qiymətlər təxminən 10 faiz ətrafında düşə bilər".

**Həmsöhbətimiz hesab edir ki, bu vəziyyət kirayə mənzil bazarına da təsir edə bilər. Onun sözlərinə görə, kirayə mənzil bazarında da qiymətlər 10-15 faizə qədər düşüb: "Əgər yay aylarında ali məktəblər fəaliyyət göstərsə, kirayə mənzillərin qiyməti nisbətən aşağı düşəcək. Bəzi mənzil və obyekt sahibləri vəziyyətlə əlaqədar qiymətləri endiriblər. Koronavirus daşınmaz əmlak bazarında böhrana səbəb oldu. Pandemiya baş verməsəydi, qiymətlər artıma doğru gedərdi".**

***Günel CƏLİLOVA***

# Sosial sığorta islahatları vəkillərə və auditorlara da çatdı, başqaları da var...

**Xəbər verildiyi kimi, vəkil, sərbəst mühasib və auditorların sosial sığorta yükünün optimallaşdırılması nəzərdə tutulur. İqtisadiyyat Nazirliyinin hazırladığı pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə (o cümlədən, kiçik və orta sahibkarlığa) vergi güzəştləri və tətilləri mexanizmində bu məsələyə də toxunulub.**

## *"Ancaq həm vəkillərə, həm vətəndaşların büdcələrinə 10 faiz məbləğində güzəştin edilməsi..."*

## *Roman Qaraşov: "Vəkilliyi sahibkarlıq fəaliyyətindən, digər biznesyönümlü işlərdən fərqləndirmək lazımdır"*




Bildirilir ki, layihədə bu kateqoriya üzrə şəxslərin sosial sığorta yükünün əldə etdikləri gəlirlərdən xərclər çıxılmaqla, 10 faizi miqdarında müəyyən edilməsi nəzərdə tutulur.

Vəkillik sahəsinə edilən güzəşt barəsində danışan vəkil Roman Qaraşov bildirdi ki, nəzərdə tutulan güzəşt vəkillik institutuna ciddi dövlət dəstəyidir və təqdir olunmalıdır: "Vəkillərin sosial sığorta xərclərinin 20 faizdən 10 faizə endirilməsi doğrudan da ciddi məsələdir. Qüvvədə olan qanunvericiliyə əsasən, vəkillik təsisatı, ümumiyyətlə, özünü maliyyələşdirən, hər bir xərcini daxili imkanları hesabına qarşılayan qurumdur".

Həmsöhbətimizin sözlərinə görə, vəkillik bir peşə olsa da, rəsmi dövlət rəmzlərini daşıyır, fəaliyyətinə birbaşa dövlət tərəfindən hər cür dəstək göstərilir. Vəkilliyi sahibkarlıq fəaliyyətindən, digər biznesyönümlü işlərdən fərqləndirmək lazımdır: "Vəkil yalnız vətəndaşlarla, firmalarla bağladığı müqavilələrdən gəlir əldə edir. Reallıq odur ki, həmin müqavilələr üzrə gəlirin 40 faizə qədəri vergi və sosial sığorta ödənişlərinə çıxılır. Vətəndaşların, xüsusilə də hüquqi yardım alan aztəminatlı ailələrin üzvlərinin də böyük məbləğə əsaslanan hüquqi xidmət müqaviləsini bağlamağa bir çox halda imkanı çatmır. Ancaq həm vəkillərə, həm də vətəndaşların büdcələrinə 10 faiz məbləğində güzəştin edilməsi bu istiqamətdə fəaliyyət göstərən şəxslər üçün ciddi stimullaşdırıcı amil olacaq".

***Günel CƏLİLOVA***

№ 65 (4196) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

25-27 APREL 2020-ci il



# Qoruyucu vasitələrdən təkrar istifadə etmək düzgün deyil

**Zəmanəmizin bəlasına çevrilən koronavirus (COVID-19) infeksiyasından güclü immuniteti və gigiyenik qaydalara düzgün əməl etməklə qorunmaq mümkündür.**

Virusla mübarizədə istifadə olunan maska və əlcəklər ən vacib qoruyucu vasitələrdən biridir. Lakin onların qoruyucu gücü fərqli olduğundan, seçim edərkən yanılmamaq lazımdır. AZƏRTAC bildirir ki, pediatr-infeksionist Aytən Ziyadova deyib: "Qoruyucu vasitələr, xüsusən maskalar bir neçə cür olur. N95 maskalarından əsasən cərrahlar, virusoloq, epidemioloq və infeksionistlər istifadə edirlər. Həmin maskalar üzə daha kip oturur və ətrafdan havanın daxil olmasına imkan vermir. Əhalinin isə sadə maskalardan istifadə etməsi məsləhətdir. İnfeksiya əsasən gözün selikli qişası, ağız və burun, eləcə də zədələnmiş bədən nahiyələrindən yayılır. Dəridə zədə olduqda əlcəklərdən istifadə etmək zəruridir". Pediatr-infeksionistin dediyinə görə, viruslar maska və əlcəklərdə toplandığı üçün onların təkrar istifadə edilməsi tövsiyə olunmur. Bəzən sterilizasiya ediləndən sonra maskalar qurudulub təkrar istifadə olunsa da, mütəxəssislər bunu düzgün saymırlar. Əlcəkləri də təkrar istifadəsi yolverilməzdir. Onları soyunarkən arxaya, yəni tərs üzünə çevirərək çıxarmaq və atmaq lazımdır. Mütəxəssislər bildirirlər ki, tibbi maskaların istifadə müddəti 2-3 saatdır. Daha uzun müddət eyni maskadan istifadə etmək tənəffüs sistemində problem yarada bilər. Təmiz havada isə maskadan istifadə etmək məsləhət görülmür.

## "WhatsApp" zəng məhdudiyyətini aradan qaldırır

**"WhatsApp" messencerində qrup zənglərində iştirak edən bilən şəxslərin sayı artırılıb.**

"Trend" xəbər verir ki, yeni dəyişikliyə əsasən, messencerdə qrup zəngi zamanı 8 nəfərədək istifadəçi əlavə oluna bilər. İndiyə qədər üç nəfər əlavə etmək mümkün idi. İlk müddətdə səkkiz nəfərlik qrup zəngləri "WhatsApp"ın beta versiyasında həyata keçiriləcək. Bu həm audio, həm də videozənglər zamanı mümkün olacaq.





**Qoç** - Bu gün planlaşdırılmamış işlər, qısa səfərlərdən uzaq durun. Uzaqlarda yaşayan qohumlar, yaxınlar və ya dostlarla danışmaq, əlaqə saxlamaq istəyəcəksiniz. Qonşulardan biri ilə də danışa bilərsiniz.



**Buğa** - Din ilə bağlı söhbət düşərsə, qatılın. Səyahətlər, təhsil ilə bağlı müzakirələr də sizi cəlb edəcək. Söhbətin qəflətən dəyişməsinə, qeyri-adi durum və qəribəliklərə hazır olun. Amma unutmayın ki, bir mövzunu araşdıran kimi başqa məsələ üzə çıxa bilər.



**Əkizlər** - Yaxın ətrafla ünsiyyət sizdə xoş əhval-ruhiyyə yaradacaq. Lakin ünsiyyət zamanı sizi pəjmürdə edə biləcək sözlər də eşidə bilərsiniz. Bəzi adamların səmimiyyəti, bəzilərinin isə düşmənçiliyi ilə qarşılaşacaqsınız.



**Xərçəng** - Sinirlənməyin, hər şeyi olduğu kimi qəbul edin. Yaxın qohumlar və tanışlarla yeni işə başlamayın. Amma onlarla söhbət etməyə dəyər. Qısa səfərlərdə təhlükə istisna deyil. Axşam saatlarında mütləq evə tez qayıdın.



**Şir** - Bu gün heç hara tələsməyin. Bütün fikir və qərarlarınızın kökündə sağlam seçim, soyuqqanlı qərar durmalıdır. Gün ərzində görməyi planlaşdırdığınız işlərə gəldikdə isə - əvvəlcə fikirləşin, sonra çalışın.



**Qız** - Maliyyə məsələləri ilə bağlı işlərdə səhvlər ola bilər. İdeal situasiyalar nadir hal olsa da, maliyyə əməliyyatları aparıb nə isə ala bilərsiniz. Amma mümkün çətinliklərə hazır olun. Tələsik heç nə almayın: keyfiyyət yaxşı olmayacaq. Ailə büdcəsi ilə bağlı evdə mübahisə yarana bilər. Günün sonunadək bədxərclik etməyin.



**Tərəzi** - Bu gün heç bir yeni işə başlamayın. Ailə, dostlar və tanışlarla bağlı yeniliyə cəlb olunsanız, həmişə gördüyünüz işlə məşğul olun. Bu gün tam mənada aktiv fəaliyyətə hazır deyilsiniz.



**Əqrəb** - Bu gün ulduzlar sizə sınaqla yanaşı, müdafiə də vəd edir. Məişətdə elementar təhlükəsizlik tədbirlərini unutmayın. Günün sonunda səhhətlə bağlı problemlər aktuallaşacaq.



**Oxatan** - Evdəki durum ağırdırsa, dəyişikliklərə can atın. Bu gün vətənpərvərlik, doğma yerlərə bağlılıq hissləri xüsusilə güclü olacaq. Hisslərinizi bir qədər cilovlayın, tanımadığınız insanlara laqeyd qalmayın.



**Oğlaq** - Yaradıcılıq enerjiniz həddən ziyadə ola bilər. Uşaqlar, məşqlər, yaradıcılıqla bağlı məsələlər vaxtınızı alacaq. Axşam düşənə qədər təhlükəli situasiyaların yaranması, ailə üzvlərinizdən birinin problemlərlə üzləşməsi istisna deyil.



**Dolça** - Bu gün ərzində əsasən maliyyə, pul və əmlakla bağlı məsələlər vaxtınızı alacaq. Bu sahələrdə yeniliklərə başlamayın. İştah və ehtiyaclarınızı adekvat dəyərləndirin. Gün ərzində yanınızda sizi yanlış addımdan saxlaya biləcək dost olmayacaq.



**Balıqlar** - Ev qayğıları ilə bağlı olan hər işdə fantaziyanızı işə salın, ümid edin, yenilikləri sınaqdan çıxarın. İdeyalarınızın hamısı ətrafdakı adamlar tərəfindən dəstəklənməsə də, ailə mühitinə yeni hava qatın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Virusların 99%-ni məhv edən dezinfeksiya dronu...

**Dünya səviyyəsində sürətlə yayılmağa davam edən koronavirus insanlara təhlükə yaradır. Xüsusilə qapalı məkanları dezinfeksiya edən insanlar koronavirus təhlükəsi ilə üz-üzə qalırlar.**

Məhz bu problemə bir çarə axtaran, avtonom texnologiyalar mövzusunda aparıcı şirkətlərdən biri olan Digital Aerolus virusların 99%-ni məhv edə bilən bir dron yaratdı. Şirkət həmin dronlara UV-C ultrabənövşəyi şüalar inteqrasiya etdi və qapalı məkanların dezinfeksiyasında insanlara qarşı yaranan təhlükəni önləmək üçün yeni bir alternativ təqdim etdi.

**"Aertos 120-UVC" adlanan dron ultrabənövşəyi şüaları sayəsində bir mühiti rahatlıqla dezinfeksiya edə bilir. Dron xüsusilə COVID-19 ilə mübarizə üçün hazırlandığı üçün 99% kimi çox yüksək bir dezinfeksiya nisbətinə malikdir.**

*Hazırladı: Namiq QULİYEV*

## TƏBRİK!



Bir körpəcə mələkdi,
Bir arzudu, diləkdi.
Çəmənimdə çiçəkdi,
Şəhlam, gözümün nuru.

Böyüyürsən mələyim,
Sevgi dolu ürəyim,
Sənsən arxa-köməyim,
Şəhlam, gözümün nuru

Mübarəkdi ad günün,
Şadlığım səsin, ünün.
Olsun toyun, düyünün,
Şəhlam, gözümün nuru.

Bu gün "Bakı-Xəbər" qəzetinin baş redaktorunun müavini Tahir Tağıyevin gözəl-göyçək, şirin-şəkər, ağıllı-kamallı qızı Şəhla balanın 4 yaşı tamam olur. Ad günü münasibətilə Şəhlanı ata-anası, bacısı, nənə-babaları, əmi-dayıları, bibisi və doğma "Bakı-Xəbər" kollektivi ürəkdən təbrik edir.

Əziz Şəhla balamız, doğum günün mübarək, hər zaman xoşbəxt ol, səadət içində yaşa.

Doğum günün mübarək Şəhlam!

## TƏBRİK!



Ayın, günün tayıdı,
Bizə Tanrı payıdı.
Bir sevgi harayıdı,
Gözəl-göyçək Ayanım.

Səkkiz yaşın mübarək,
Bahardı açıb çiçək.
Sənin tək varmı göyçək,
Zərif çiçək Ayanım.

Xanımların gözəli,
Şairlərin qəzəli.
Sənsən duzlu-məzəli,
Qəlbi kövrək Ayanım.

"Bakı-Xəbər" ailəsinin daha bir üzvünün övladının doğum günüdür. Qəzetimizin dizayneri Saleh bəyin qızı Ayan balanın 8 yaşı tamam olur. Ayan balanı doğum günü münasibətilə atası Saleh bəy, anası, nənələri, babaları, bacısı, bütün qohumları ürəkdən təbrik edirlər. "Bakı-Xəbər"çilər də çiçək kimi gözəl Ayana xoşbəxtlik arzu edirlər.

Əziz Ayan balamız, doğum günün mübarək, həmişə xoşbəxt ol, sevgi, sevinc içində yaşa, atalı-analı böyü!

Ayan, ad günün mübarək!

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.